QARABAĞ AZƏRBAYCANDIR!

## Binəli Yıldırım: “Türkiyə-Azərbaycan qardaşlığı yeni layihələrlə daha da yüksək zirvələrə çıxacaq”



3

SƏS

№ 175 (6616) 27 sentyabr 2022-ci il. Qiymәti 60 qәpik



2

# İlham Əliyev Ermənistana son şansını verdi!

# 27 sentyabr: iki il öncə-tarixin bu günü



8

## “Azərbaycan diplomatik masada da öz qələbəsini reallaşdırıb”



10

## Paşinyanın BMT sərsəmləmələri: günah bizdən getdi!



7

## Jurnalistlərə imtiyazların verilməsi onlara nə dərəcədə təsir edəcək?



5

## Ad günü-Anım günü...



12

## Hansı xəstələr pensiya ala bilər?



14

## Dayanacaqlarda ödəmə terminalları niyə yoxdur?



16

ANALİTİK + AKTUAL

# İlham Əliyev Ermənistana son şansını verdi!



## "Bizim sərhədlərimiz delimitasiya olunmamış heç kim deyə bilməz ki, o haradan keçir"

**"Bu bayraq burada əbədi dalğalanacaq!". Həmin tarixi ifadələri Prezident İlham Əliyevin işğaldan azad edilmiş Laçın şəhərində səsləndirdi. O cümlədən, dövlət başçımızın yüksəltdiyi bayrağımız daha bir mühüm mərhələnin anonsunu verdi. Bayraq qarşısında çıxış edən Müzəffər Ali Baş Komandanımız qarşıda dayanan perspektivlərdən danışdı, eləcə də Cənubi Qafqazda sülhün təmin olunması planlarını irəli sürdü və xüsusilə vurğuladı ki, artıq bundan sonra heç bir qüvvə bu planların realizə olunmasına mane ola bilməyəcək. Söz yox ki, bizə dost münasibəti bəsləməyən bütün qüvvələr bu gerçəkliyi, bu həqiqəti anlamalıdırlar.**

O cümlədən, Laçın şəhərində bayrağımızı ucaldan Prezident bu hadisəni tarixi olay kimi qiymətləndirdi. Dövlət başçımız vurğuladı ki, Laçın şəhərinin azad edilməsi tarixdə qalacaq.

### Əgər Ermənistan bizə qulaq assaydı...

Beləliklə, ölkə rəhbərimiz çıxışı zamanı ən mühüm mesajını verdi: Azərbaycan hər zaman sülh istəyib, ona doğru can atın və əgər kimlərsə bunu istəməyiblərsə, işğal etdikləri ərazilərdən çıxmaqdan imtina ediblərsə, ardıcıl olaraq silahlı təxribatlar törədiblərsə bu heç də Azərbaycanın günahı deyil. Ancaq bu gün də "Dəmir yumruq" öz gücündə və hazır vəziyyətdədir və başqa yol qalmadığı halda o yenidən düşmənin başını əzəcək!

Məhz bu baxımdan, Prezident İlham Əliyev xüsusilə vurğuladı ki, əgər Ermənistan bizə qulaq assaydı onda İkinci Qarabağ məsələsi olmaya da bilərdi. "Əgər Ermənistan öz istəyi ilə bizim torpaqları azad etsəydi, müharibə baş verməzdi", deyə dövlət başçımız qeyd edib. Həmçinin, daha bir mühüm nüans budur ki, Prezidentin sözləri birbaşa ünvana istiqamətləndirib - əsasən də 44 günlük müharibədə öz yaxınlarını itirən ermənilərə. Axı bütün bunlar olmaya bilərdi, əlbəttə ki, erməni faşizmi və şovinizmi olmasaydı. Üstəlik, 44 günlük müharibəyə qədər də İlham Əliyev bu barədə öz xəbərdarlıqlarını edirdi...

Lakin təəssüf ki, erməni tərəfi hələ də müharibədən sonrakı yeni reallıqları qəbul etmək fikrində olmadığını müxtəlif əməlləri ilə nümayiş etdirməkdədir. Bu oyunbazlıqların isə Ermənistana hər hansı müsbət nə isə verəcəyini ümumiyyətlə ehtimal etmək mümkün deyil. Dövlətimizin başçısı bu məsələdə əsas problemi də qabardıb: ermənilər sülh sazişinin imzalanması prosesini gecikdirir və açıq-aşkar həmin nəyi isə dəyişməyə hazırlaşmadıqlarını göstərirlər.

### İlham Əliyev bir daha sülh prosesinə xələl gətirməyə cəhd göstərən erməni oyunbazlarına xəbərdarlıqlarını göndərib

"Biz Ermənistanla sülh sazişinin imzalanması üçün 5 prinsip irəli sürdük. Onlar sözdə bu prinsipləri qəbul etdilər, ancaq əməldə biz bunu görmürük", deyə Prezident İlham Əliyev xatırladıb. Və məhz bu ifadəsi ilə İlham Əliyev bir daha sülh prosesinə xələl gətirməyə cəhd göstərən erməni oyunbazlarına xəbərdarlıqlarını göndərib. Fakt budur ki, sərhədlərin delimitasiyası və demarkasiyası, eləcə də kommunikasiyaların blokadadan çıxarılması ilə bağlı işçi komissiyası yaradılıb, ancaq Ermənistan prosesin irəliləməsi üçün heç nə etmir, ortada isə heç bir praktiki nəticə mövcud deyil.

O cümlədən, Azərbaycana qarşı ədalətsiz mövqe göstərən bəzi beynəlxalq dairələr də rəsmi Bakıya suallar ünvanlamaqdansa həmin suallarını Ermənistana, rəsmi İrəvana doğru yönəltməlidirlər ki, nəyə görə üzərinə götürdüyü öhdəliklərini yerinə yetirmir? Ermənistan tərəfi imzalanmış üçtərəfli bəyanatın heç bir bəndinə əməl etmir. Halbuki, Azərbaycan Zəngilana qədər dəmir yolunu çəkib və avtomobil yolu da bu çərçivədədir. Ölkə başçımız vurğulayıb ki, gələn ilin sonuna qədər bu yollar Ermənistanla sərhədə qədər inşa ediləcək. Ancaq Ermənistan ərazisində heç bir işlər aparılmır və bu da göstərir ki, onlar heç nə etmək fikrində belə deyillər, vaxtı uzatmaqla məşğuldurlar. Məhz bu baxımdan, İlham Əliyev haqlı olaraq Ermənistana və onun havadarlarına sual edir və aydınlaşdırır ki, Azərbaycan nəyə görə Ermənistandan nələri isə tələb etməli və səbəblərini soruşmalıdır. Əks halda isə Azərbaycan bütün bunların realizəsi üçün Ermənistanı gərəkli addım atmağa məcbur da edə bilər. Hər halda burada nalaşılmayan heç nə yoxdur - Ermənistan prosesi uzatmaq oyunbazlıqlarından birdəfəlik əl çəkməli və regionda sülh prosesinin əldə olunması üçün təxribatlara yol verməməlidir!

### Bütün Qarabağın və Zəngəzurun onlara qalacağını düşünürdülər...

Həmçinin, delimitasiya prosesində də heç bir tərəf Azərbaycanı ittiham edə bilməz. Prezidentin daha bir tezisi ondan ibarətdir ki, kimlərsə, hansısa anti-Azərbaycan mövqeyi tutan dairələr ölkəmizi "aqressiyada" ittiham edirsə kökündən yanılır. Əgər Ermənistan Prezidentimizin sözlərinə görə bizi ittiham edərək onun ərazisinə daxil olduğumuzu iddia edirsə bu ümumiyyətlə, əsassız fikirlərdir.

Prezident İlham Əliyev vurğulayıb ki, əgər sərhəd onların iddia etdikləri yerlərdə olubsa, bu zaman həmin ərazilərdə sərhəd hasarlarını çəkərdilər, kommunikasiyalarını qurub, mühəndis işlərini aparardılar. Onlar bütün Qarabağın və Zəngəzurun onlara qalacağını düşünürdülər. Məhz bu baxımdan da Azərbaycan-Ermənistan sərhədləri boyunca heç bir işlər görməyiblər.

"Yəni bizim sərhədlərimiz delimitasiya olunmamış heç kim deyə bilməz ki, o haradan keçir", deyə Prezident İlham Əliyev vurğulayıb.

### İrəvanın əsassız iddialarına qarşı Bakının əlində sənədli-sübutlu xəritələr mövcuddur

Ancaq hər şeyə rəğmən, Azərbaycan bir daha sübut edir ki, o danışıqlara hazırdır və sərhədlərin müəyyənləşdirilməsi, eləcə də sülhün əldə olunması üçün prosesin irəliləməsi tərəfdarıdır. Habelə, İrəvanın əsassız iddialarına qarşı Bakının əlində sənədli-sübutlu xəritələr də mövcuddur.

"Mən yenə də deyirəm, biz müzakirələrə hazırıq və delimitasiya komissiyalarının - Azərbaycan-Ermənistan komissiyalarının işinə məsuliyyətlə yanaşırıq. Bütün xəritələri toplamışıq. Bir daha demək istəyirəm ki, bütün xəritələr, o cümlədən XIX əsrə, XX əsrə, ondan əvvəlki dövrə aid olan xəritələr bizdədir və o xəritələr açıq-aydın göstərir, kim hansı torpaqda yerləşibdir. Ona görə delimitasiya aparılmadan bizi heç kim ittiham edə bilməz", deyə Prezident İlham Əliyev vurğulayıb.

Beləliklə, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev bir daha öz bəyanatını irəli sürdü və bununla sübut etdi ki, Azərbaycan həqiqətən də Ermənistanla sülhün əldə olunmasına, dialoqa hazırdır. Və Ermənistan bəlkə də sonuncu şansından istifadə etməli və bu şansını əlindən buraxmamalıdır!

*Rövşən RƏSULOV*

## Rəsmi xronika

Prezident İlham Əliyev "Media Reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında Fərman imzalayıb.

# Prezident İlham Əliyev

## Anım Günü ilə əlaqədar paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 27 Sentyabr - Anım Günü ilə əlaqədar paylaşım edib. AZƏRTAC xəbər verir ki, Ali Baş Komandan Azərbaycan Ordusunun hərbi qulluqçularının əks olunduğu fotonu rəsmi feysbuk və instaqram hesablarında paylaşıb.

## Binəli Yıldırım: "Türkiyə-Azərbaycan qardaşlığı yeni layihələrlə daha da yüksək zirvələrə çıxacaq"




Azərbaycanın 44 günlük Vətən müharibəsi nəticəsində əldə etdiyi Zəfərin ikinci ildönümü münasibətilə Şuşanı ziyarət etdik. Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə keçirilən toplantıda çıxışımız da oldu. Zəfərdən sonra Şuşada çox böyük bərpa-yenidənqurma işləri aparılır. Orada yollar inşa edilir, tarixi abidələr bərpa olunur, yəni Şuşada insanların yenidən həyata qayıtması üçün böyük işlər görülür.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini, Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım ifadə edib.

Azərbaycanın tarixi Qarabağ bölgəsində otuz ilə yaxın davam edən işğala, əsirliyə son qoyulduğunu vurğulayan Binəli Yıldırım bildirib: "Qarabağ Azərbaycanın əbədi torpağıdır, bundan sonra da belə olacaq. Türkiyə-Azərbaycan qardaşlığı iqtisadiyyat, mədəniyyət, idman, ümumiyyətlə, bütün sahələrdə yeni layihələrlə, birgə işlərlə daha da yüksək zirvələrə çıxacaq. Bu layihələr çərçivəsində elm adamlarımızın birgə fəaliyyəti də nəzərdə tutulur".



# "Biz regionumuzun 30 il ərzində olduğu ağır vəziyyətdən çıxmasının tərəfdarıyıq"

## Prezident İlham Əliyev Rusiya Federasiyası Dövlət Dumasının Sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Prezident İlham Əliyev sentyabrın 26-da Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının Sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Qonaqları salamlayan Prezident İlham Əliyev bildirib ki, ölkələrimiz arasında parlamentlərarası əlaqələr sürətlə inkişaf edib: Dövlət Duması ilə də, Federasiya Şurası ilə də həm rəhbərlik səviyyəsində, həm də deputatlar səviyyəsində daim əlaqə saxlamışıq. Bu, ölkələrimiz arasında dövlətlərarası münasibətlərin çox mühüm amilidir və bu münasibətlər çox müsbət dinamikaya malikdir. Əlbəttə, dövlət başçıları səviyyəsində müntəzəm görüşlər də dinamizmin saxlanmasına şərait yaradır. Bütövlükdə, bizim münasibətlərimizin gündəliyinə fikir versək, o, kifayət qədər genişdir, praktiki olaraq bütün sahələri əhatə edir. Əməkdaşlığımızın o qədər də fəal olmadığı sahələri göstərmək daha asan olar. Ona görə ki, həm siyasi, həm iqtisadi, həm nəqliyyat, energetika və humanitar sahələrdə bütün göstəricilər göz qabağındadır, biz həqiqətən yaxşı dinamika görürük. Əsas məsələ nəticəyə hədəflənməkdir. Çünki razılığa gəldiyimiz bütün məsələlər həyata keçirilir. İqtisadi-ticari sahədə, informasiya, kommunikasiya, nəqliyyat və digər sahələrdə səkkiz yol xəritəsi razılaşdırılıb və həyata keçirilir, hər bir istiqamət üzrə qarşıya qoyulmuş məsələlərin yerinə yetirilməsinin dəqiq qrafiki var və icraya nəzarət edilir. Ona görə biz burada yalnız müsbət nəticə olduğunu deyə bilərik. Bir daha qeyd edirəm, nəticələr bizim ümumi səylərimizlə yaranıb, ölkələrimiz üçün və mənim fikrimcə, bütövlükdə region üçün böyük əhəmiyyət kəsb edir. Əlbəttə, regional təhlükəsizlik məsələləri həmişə bizim münasibətlərimizin gündəliyindədir. Biz bu yaxınlarda Səmərqənddə Rusiya Prezidenti ilə görüşümüzdə bu barədə danışmışıq. Əlbəttə, bizim regionda sülh bütün ölkələr, bütün xalqlar üçün zəruridir. Bizim gündəliyimiz kifayət qədər birmənalıdır. Biz dəfələrlə bildirmişik ki, uzunmüddətli və davamlı sülhün, qonşularımızla bağlı bütün problemlərin həllinin və bu regionun 30 il ərzində olduğu ağır vəziyyətdən çıxmasının tərəfdarıyıq.

Bilavasitə sizin sahəyə gəldikdə isə deməliyəm ki, biz həm beynəlxalq strukturlar çərçivəsində, həm də ikitərəfli formatda əlaqələrin davam etdirilməsi niyyətindəyik. Siz öz həmkarınızla görüşəcəksiniz. Fikrimcə, siz də gündəliyi ətraflı nəzərdən keçirəcəksiniz. Bir sözlə, danışmalı məsələlər çoxdur. Ona görə ki, gündəlik həqiqətən çox zəngin və nəticəvidir. Məncə, bizim diqqəti cəmləşdirdiyimiz bu əsas istiqamətlər ikitərəfli münasibətin müsbət dinamikasını göstərir."

Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının Sədri Vyaçeslav Volodin bildirib ki, münasibətlərimiz çox cəhətdən inkişaf edir: Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti Haqqında Bəyannamə imzalanıb. Bu, həqiqətən strateji tərəfdaşlıq əsasında əldə edilmiş çox ciddi səviyyədir. Buna görə parlamentlərarası əlaqələri inkişaf etdirməyimiz son dərəcə vacibdir. Biz bu barədə danışmışıq. İş elə gətirib ki, pandemiya həqiqətən planlarımızda dəyişiklik edib. Parlamentlərarası qarşılıqlı fəaliyyət barədə danışmalı olsaq, hər halda bu fəaliyyətin əsasını görüşlər, dialoq, kommunikasiya təşkil edir. Əlbəttə, bütün bunlar videokonfrans rabitə rejimində həyata keçirilib. Bu format əsas olub. Lakin bilavasitə söhbət olmasa, münasibətlərin videokonfrans rabitə rejimində olduğu kimi inkişafı barədə danışmaq çətindir. Buna görə pandemiya ilə bağlı vəziyyət yüngülləşməyə başlayan kimi biz bundan istifadə etdik, həmkarlarımızla razılığa gəldik ki, hökmən görüşək və münasibətlərimizin inkişafı məsələlərini müzakirə edək. Ona görə ki, Rusiya Federasiyasının və Azərbaycan Respublikasının prezidentləri tərəfindən imzalanmış Bəyannamədə xüsusi vurğulanır ki, parlamentlərarası əlaqələrimiz inkişaf etdirilməlidir. Buna görə biz kommunikasiya formatlarını, yeni yanaşmaları müzakirə edəcəyik ki, qanunveriliyin təminatı məsələlərinin, dövlət başçıları səviyyəsində müzakirə edilən məsələlərin həllinə real töhfə verək.

Dövlətimizin başçısı Rusiya Federasiyasının Prezidentinin xoş sözlərinə və salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Vladimir Putinə çatdırmağı xahiş edib.




## Hikmət Hacıyev ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi ilə görüşüb

Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid ilə görüşüb. AZƏRTAC xəbər verir ki, bu barədə Hikmət Hacıyev tviter hesabında bildirib. H.Hacıyev və K.Donfried arasında keçirilmiş görüşdə münasibətlərin normallaşdırılması prosesinin hazırkı vəziyyəti, sülh müqaviləsi, sərhədlərin delimitasiyası və nəqliyyat məsələləri, o cümlədən ikitərəfli strateji əlaqələrin inkişaf perspektivləri müzakirə olunub.

# Haylara tay olanlardan

# GÜLÜNC TƏSƏLLİ





**"Güney Qafqazda sərhədlərin dəyişdirilməsi yolverilməzdir", ifadəsi son vaxtlar qonşu dövlət olan İranın nəinki rəsmilərinin, hətta mollasından tutmuş, siyasətçisinə, diplomatına, hərbçisinə qədər çoxlarının dilinin əzbəri olub. Təbii ki, bunun hansı səbəbdən, nəyə görə olduğu, belə ifadələr səsləndirməyin nə məna daşıdığı hər kəsi maraqlandırır və bunun nəyə hesablandığı, hansı maraqlar güdüldüyü də düşündürücüdür.**

BMT Baş Assambleyasının Nyu-Yorkda keçirilən 77-ci iclası çərçivəsində İran prezidenti İbrahim Rəisinin digər bir qonşu dövlət olan Ermənistanın baş naziri Nikol Paşinyanla görüşü bizim üçün diqqətdən yayına bilməzdi, çünki bu görüşün əsas müzakirə mövzusu Azərbaycan-Ermənistan sərhədində baş verənlər olub. Sərhəddə davamlı olaraq təxribatlara yol verən, növbəti təxribatları törətmək üçün də dəridən-qabıqdan çıxan Nikol Paşinyan, bütün bu mənfur əməllərə rəhbərlik etməsi fonunda, əsl erməni simasızlığına uyğun olaraq, utanmadan hələ Azərbaycandan şikayətlənib. "Ermənistanın təhlükəsizliyi İran üçün çox önəmlidir", deyən İbrahim Rəisi isə, təbii ki, Ermənistana, bu ölkənin baş nazirinə bir növ, təsəlli verib. Məsələ burasındadır ki, hazırda İranın özünün təsəlliyə ehtiyacı olduğu halda bu ölkə prezidentinin qonşu dövlətə, həmin dövlətin baş nazirinə təsəlli verməsi çox gülünc görünür.

"Sərhədin güc və müharibə yolu ilə dəyişdirilməsinə dözməyəcəyik", deyən İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Məhəmməd Baqerinin ifadəsi isə bir növ təhdid kimi görünür və bu təhdidin bizə, Azərbaycana ünvanlandığı bəllidir. İstər prezident İbrahm Rəisinin, istər Baş Qərargah rəisi Məhəmməd Baqerinin, istərsə də hərhansı İran rəsmisinn mövqeyi, səsləndirdiyi ifadələr onu göstərir ki, uzun müddətdir özünü İslam Respublikası elan edən İran, öz ənənəsinə sadiq qalaraq, müsəlman ölkəsini, özü də haqlı olan ölkəni deyil, müsəlman ölkəsinə düşmən kəsilən xristian ölkəsini, Ermənistanı müdafiə edir və üstəlik ermənilərə xoş gəlsin deyə, Azərbaycanı təhdid belə etməyi özünə rəva bilir. Sözsüz ki, İran bu dəfə də öz "üzünü" ortaya qoyur və bu "üz" bizə çoxdandır tanışdır, bu baxımdan da gülünc görünsə də belə, o qədər də təəccüblü görünmür.

İran, istər ötən əsrin 90-cı illərində, yəni Birinci Qarabağ müharibəsində, istər 2020-ci ildə başlayan və 44 gün davam edən müharibə dönəmində, istərsə də postmüharibə dövründə hər daim Ermənistanı dəstəklədi. İranın, bir müsəlman ölkəsinin, İslam Pespublikası olaraq özünü təqdim edən dövlətin müsəlman ölkəsi olan, müsəlmanların yaşadığı Azərbaycanı, onun islam dini mənsubiyyətli vətəndaşlarının haqlı mövqeyini deyil, onlara düşmən kəsilən qonşu ölkənin vətəndaşlarını, işğalçı qonşu ölkə olan Ermənistanı hər zaman dəstəkləməsi yalnız ikrah doğurur. Həm də belə bir dəstək əlbəttə ki, çoxsaylı suallar doğurur. İlk öncə sual yaranır ki, axı niyə İran İslam Respublikası bir xristian ölkəsini, özü də islam ölkəsini özünə düşmən hesab edən, əleyhində olan Ermənistanı tutur?

Ermənistan təkcə Azərbaycana, azərbaycanlılara qarşı düşmənçilik etməyib axı, bu ölkə bütövlükdə müsəlmanlara, islam dünyasına qarşı düşmənçilik aparır. İşğalçı ölkənin apardığı işğalçılıq siyasətinin fonunda, bəlli müddət ərzində bir nəfər azərbaycanlının belə yaşamadığı, 30 il işğal altında qalan Azərbaycan torpaqlarında ermənilərin müsəlman məscidlərinə, dini abidələrə qarşı törətdiklərini İran tərəfi bilmirmi? Hər şeydən xəbərdar olan İran, bizim ərazilərimizdə olan məscidlərin ermənilər tərəfindən bilərəkdən murdarlanmasını da bilir. Bilir ki, müsəlman məscidlərini ermənilər təkcə viran qoymaqla kifayətlənməyiblər, müsəlmanlar üçün Allahın evi sayılan bu müqəddəs yerdə donuz saxlamaqla, bütövlükdə müsəlman dünyasına, islam ölkələrinə təhqir ünvanlayıblar. Bütün bunların fonunda, bütün bunlara rağmən İran yenə də müsəlmanları, azərbaycanlıları yox, İslam dəyərlərini təhqir edən erməniləri açıq şəkildə və israrla dəstəkləyir.

İran, I Qarabağ müharibəsində müsəlmanlara, azərbaycanlılara qarşı soyqırımlar həyata keçirən Ermənistanı dəstəklədi. Ermənilərin etdikləri vəhşiliklər, tarixdə tayı-bərabəri olmayan Xocalı soyqırımına imza atmaları fonunda İran işğalçıya, erməni vəhşiliyinə dəstək verdi. Bunu II Qarabağ savaşında da davam etdirdi və bu dəfə də Gəncədə, Tərtərdə ermənilərin törətdiklərinə biganə yanaşıldı, dinc əhaliyə qarşı qəddarlıq edilməsinə İran tərəfindən göz yumuldu. Bu, artıq göstərir ki, İran çoxdandır Ermənistanı özünə yaxın bilir və müsəlmanların düşmənlərinə dost olmaları gülünc olmaqla yanaşı, həm də çox rüsvayçıdır, İran üçün xəcalət çəkiləsi bir məqamdır.

Daha bir məqam diqqəti cəlb etməyə bilməz və bu məqam İranın özünün qlobal miqyasda acınacaqlı vəziyyətidir. İranın özü halhazırda bütün dünyanın hədəfindədir və bunu həmin ölkə siyasətçiləri, politoloqları daha yaxşı dərk edirlər. Dərk edirlər ki, İran özünün Rusiya yönümlü olması ilə bütün dünyanı özünə qarşı qaldırıb, çünki İranın Rusiyanı dəstəkləməsi beynəlxalq birliyə qarşı çıxmaq deməkdir və indi bu halda İran öz hayında olmalıdır, hayların yox. Bu dırnaqarası İslam Respublikasının Ermənistanı dəstəkləməsi məhz bu baxımdan da gülüncdür, çünki məhz İranın Rusiyanı dəstəkləməsinin Ukraynanın beynəlxalq birliyin diqqətinə çatdırması, başda ABŞ olmaqla, bütövlükdə Qərbin Tehrana qarşı sanksiyaları genişləndirəcəyi, İranla yeni nüvə sazişinin bağlanılmayacağı anlamına gəlir. Belə bir vəziyyət İran üçün yaxın zamanda ciddi, çətin vəziyyət anonsu deməkdir və bu şəraitdə kim-kimə təskinlik verir və bu təskinlik gülünc deyilmi?

Onu da diqqətə çatdırmaq yerinə düşərdi ki, son günlər İranda başlayan və bütün şəhərlərə yayılan hicab aksiyası bu ölkədəki dini ideologiyanın da deqredasiyaya uğradığını isbatlayır. Üstəlik, sosial-iqtisadi problemlər, kəskin təbəqələşmə, milli kimliklərə qarşı aparılan diskriminasiya siyasəti bütün təbəqədən olan insanların etiraza qoşulması ilə nəticələnib və bu da qurduqları sistemin təməlindən çökməkdə olduğuna işarədir. Belə olan halda, İran nə üzlə Ermənistana təsəlli verir, Azərbaycana isə təhdidlər ünvanlayır? Bu hal əlbəttə ki, İranın özünü gülünc vəziyyətə saldığını ortaya qoyur və təkcə biz yox, bütün dünya beləcə bu ölkəyə tamamilə fərqli şəkildə yanaşır, çünki özünü gülünc günə qoyub.

Əlbəttə ki, Cənubi Qafqazdakı yeni reallığı dəyişdirməyin mümkün olmayacağını rəsmi Tehran çox yaxşı başa düşür, qəbul da edir. "Sərhədin güc və müharibə yolu ilə dəyişdirilməsinə dözməyəcəyik", deyən İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Məhəmməd Baqerinin də dediklərinin anlamsız və mümkünsüz olduğu hər kəsə bəllidir. Bəllidir ki, hərbi müdaxilə üçün zəmin və siyasi şərait olmadığı halda "dözməyən" Məhəmməd Baqeri dözsə də, dözməsə də heç nə edə bilməz. Elə isə, belə mənasız fikirlər, ifadələr səsləndirməyin anlamı nədir? Kimin dəyirmanına su tökülür və burada İranın dividenti nə ola bilər? Axı bu qonşu ölkə öz problemlərini həll edib ki, başqalarının problem kimi göstərdiklərini də düşünsün? "Özünə umac ova bilməyən başqasına əriştə kəsə bilməz", zərb məsəli bu məqamda lap yerinə düşür.

İranın müxtəlif şəhərlərində etirazlar səngimək bilmir və etirazçıların şuarları vəziyyətin nə yerdə olduğunu ortaya qoyur. Əgər etirazçılar dini lider Xamneyinin fotolarını yandırır, rejimə qarşı "rədd ol" tələbləri irəli sürürsə, bu artıq İran dövləti üçün həyəcan təbili deməkdir. Bu ölkənin bundan sonrakı vəziyyəti sual altındadır. İstər qlobal müstəvidə, beynəlxalq miqyasda, istərsə də daxili vəziyyətindəki acınacaq halı İran üçün problemlərin yetərincə olması kimi başa düşülür. Bunu rəsmi Tehran anladığı halda, İran parlamenti Azərbaycan-Ermənistan sərhədində baş verənləri müzakirəyə çıxarır, bu ölkənin hərbi rəhbərliyi də Bakıya qarşı təhdidlər irəli sürür və məhz gülünc olan həm də budur.

Heç bir dövlət, xüsusən də Azərbaycan kimi suveren, müstəqil bir ölkə hansısa kənar qüvvənin, qonşu dövlətin təhdidləri ilə deyil, milli maraqlarına əsasən öz siyasətini formalaşdırır və bunu İran rəsmilərinin anlaması gərəkir. Qonşu dövlətin mollaları bəzi həqiqətləri anlamalıdırlar və bilməlidirlər, qəbul etməlidirlər ki, Azərbaycan onlar üçün hansısa bir kiçik körfəz ölkəsi deyil və hədələri də nəinki təsirsizdir, hətta heç bir məna da kəsb edə bilməz. Mövcud reallıqlar, Azərbaycanın yaratdığı reallıqlar fonunda əsl həqiqət bundan ibarətdir və bununla barışmaqdan başqa İran mollalarının da, digər rəsmilərinin də çarəsi yoxdur.

Bəli, Cənubi Qafqazda reallıq dəyişib, hansıki bu, nə qədər tez dərk edilsə, qəbul edilsə, Ermənistan üçün də, İran üçün də bir o qədər yaxşı olar. Yaxşı olar, hər iki ölkə dərk etsin ki, işğal altındakı torpaqlarımız, Azərbaycan torpaqları öz gücümüz, öz imkanlarımız hesabına işğaldan azad edilib. Deməli, indi gündəliyi Azərbaycan müəyyən edir, hansı ki, bölgədə maraqları olan bütün tərəflər də yalnız bu gündəlik çərçivəsində addımlar atmalıdırlar və haqqında bəhs etdiyimiz bu reallıq dəyişilməzdir. Kimliyindən asılı olmayaraq, bu dəyişilməz reallığa qarşı çıxanlar, Ermənistanın son çabaları fonunda atdığı addımlara dəstək olanlar, rüsvayçı məğlubiyyət acısını dadan miskin bir işğalçı ölkənin ardınca düşənlər də onlara qoşularaq rüsvayçılıqla qarşılaşıb gülünc olmalıdırlar. Həm də Allahın evində donuz saxlayan haylara tay olaraq gülünc olurlar.

***İnam Hacıyev***

## Ukrayna-Rusiya müharibəsində son vəziyyət NECƏDİR?

*POLİTOLOQ ŞƏRH ETDİ*





"Rusiya qoşunları Ukraynada müəyyən məğlubiyyətə uğrayırlar".Bu sözləri SİA-ya açıqlamasında politoloq İlqar Vəlizadə deyib. Onun sözlərinə görə, Ukrayna hərbiçilərinin əks hücumları göstərir ki, Rusiyanın Ukrayna ərazilərində irəliləməsi səngiyib: "Bu da ABŞ və müttəfiqlərinin Ukraynaya olan hərbi maddi dəstəyinin nəticəsidir. Ona görə də Rusiyanın siyasi rəhbərliyi və prezident Putin bəyan edib ki, Rusiya Ukrayna ilə deyil, Qərblə vuruşur. Təəssüflər olsun ki, müharibənin miqyası genişlənib. Səfərbərliyin əsas səbəbi odur ki, Rusiya üçün əlavə canlı qüvvə tələb olunur. Bu səfərbərlikdən sonra Rusiyanın daxilində gərginlik yaradıb.

Cəmiyyətdə Rusiyaya qarşı olan əhval-ruhiyyə dəyişilib. Müharibə davam edir və müharibənin acınacaqlı fəsadları irəlidədir. Türkiyə tərəflər arasında dialoqun bərpa olunmasına çalışır. Baxmayaraq ki, tərəflərin mövqeləri çox fərqlidir. Lakin sülhün olması ilə bağlı ümidlər var. Bu cür ümidlərin olması müharibənin arzuolunmaz istiqamətdə inkişafına manеə olacaq".

***Qönçə Quliyeva***

# 200 illik qanlı və şanlı yol!



**”Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artileriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutmuşdur.**

Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür ”.

Bu fikirlər Müzəffər Ali Baş Komandan, Qalib Sərkərdə, xalqının Xilaskar oğlu, ölkə Prezidenti cənab İlham Əliyevin düz iki il öncə, 27 sentyabr tarixində Azərbaycan xalqına tarixi müraciətindədir.



***Eldar İBRAHİMOV,***
***Milli Məclisin (MM) İntizam komissiyasının sədri, professor***

Düz ik il öncə, 27 sentyabr 2020-ci il tarixində tarixində növbəti dəfə atəşkəs rejimini kobud şəkildə pozan və növbəti dəfə qanlı təxribat əməlinə əl atan işğalçı, təcavüzkar Ermənistan silahlı qüvvələri cəbhə boyu Azərbaycan silahlı qüvvələrinin mövqelərinə intensiv zərbələr endirməklə yanaşı Tərtər, Ağdam, Füzuli və Cəvrayıl rayonlarının yaşayış məntəqələrini qəsdən artilleriya atəşinə tutaraq Azərbaycana qarşı növbəti təcavüzə başladı.

Nəticədə, hərbi qulluqçular ilə yanaşı Azərbaycanın 11 dinc sakini, o cümlədən 2 uşaq həlak oldu.

Düşmənin hərbi təxribatını dəf etmək və təcavüzünə son qoymaq məqsədilə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dərhal bütün cəbhə boyu əks-hücuma keçmək əmri verdi.

Ermənistanın və onun qanlı havadarlarının Azərbaycana qarşı 200 ildən çox davam edən düşmənçilik və etnik dözümsüzlük siyasətindən boğaza yığılan, cana doyan, təngə gələn, səbr kasası dolub-aşan Azərbaycan xalqı və Azərbaycan dövləti öz Rəşadətli Ordusu, İgid, Qəhrəman Əsgər və Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə müqəddəs Vətən savaşına qalxdı, İkinci Vətən Müharibəsinə başladı.

Bütün dünya bir daha Azərbaycanın, onun Liderinin əzminə, qətiyyətinə və sarsılmaz dəmir iradəsinə, işğalla, düşmənlə barışmazlığına şahidlik etdi.

Bütün dünya 2016-cı ilin Aprel döyüşləri və tarixi Cünnüt əməliyyatında Azərbaycan dövləti, Azərbaycan xalqı və Ali Baş Komandanın rəhbəri olduğu Rəşadətli Azərbaycan Ordusunun cəsarətinə, qətiyyətinə necə şahidlik etmişdisə, yenidən və bir daha qarşısında həmin əzmi, həmin qətiyyəti, həmin cəsarəti, həmin iradəni gördü.

Gördü, duydu və bildi ki, artıq güclü, qüdrətli Azərbaycanla bacarmaq, onu təhdidlə, təzyiqlə çəkindirmək, hədəfindən, əzmindən sapdırmaq mümkün deyil.

Və cəmi 44 günlük Vətən Müharibəsi ilə düşmən və onu müdafiə edənlər üzərində tarixi Qələbə qazanıldı, dünya hərb elmi tarixinə yenilik, yeni səlnamə daxil oldu.

44 günlük müharibə nəticəsində Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ölkənin ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi.

Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısını almaq məqsədi ilə 27 sentyabrda bütün cəbhə boyu əks-hücuma keçən Azərbaycan Ordusu 1990-cı illərin əvvəlində baş verən Birinci Qarabağ Müharibəsi zamanı Ermənistan tərəfindən işğal edilmiş əraziləri işğaldan azad etməyə başladı.

44 gün davam edən və Vətən Müharibəsi olaraq adlandırılan müharibə Şanlı Azərbaycan Ordusunun gücünü göstərərək Azərbaycanın qələbəsi ilə başa çatdı.

Azərbaycanın mədəniyyət paytaxtı hesab edilən Şuşa şəhəri Şanlı Azərbaycan Ordusu tərəfindən azad edildikdən dərhal sonra, noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzaladılar.

Düşmənin 10 noyabr bəyanatını imzalamaqdan, təslimiyyətini etiraf etməkdən başqa yolu qalmadı.

Düşmən qarşımızda diz çökdürüldü, rəzil-rüsvay edildi.

Rəşadətli Ordumuzun başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi.

Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəkliyi, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəkləri və daha 5 adsız yüksəklik azad olundu.

Noyabrın 10-da imzalanmış bəyanata əsasən noyabrın 20-də Ağdam rayonu Azərbaycana təhvil verildi. Bununla da rayonun işğal edilmiş 73 faiz ərazisi, o cümlədən Ağdam şəhəri azad olundu. Üçtərəfli bəyanata əsasən, noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verildi.

Kəlbəcər şəhəri də daxil olmaqla, 147 yaşayış məntəqəsi işğaldan azad edildi. Dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verildi.

2022-ci il avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bununla da üçtərəfli bəyanata uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşdı.

Bəli, İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir.

Bu Qələbə tarixdə əbədi qalacaq.

Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır və bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacaq.

Bütün təzyiqlərə, təhdidlərə baxmayaraq Azərbaycan Qələbə qazandı və tarixi ədalət bərpa olundu. Azərbaycan Ordusu şəhidlərin qanını yerdə qoymadı.

Qələbəni bizə bəxş edən qəhrəman Əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir.

Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrildi.

Allah cəmi Şəhidlərimizin məkanlarını cənnətlik etsin, Yaralı və Qazilərimizə şəfa versin!

Qarabağı dağlı-aranlı Vahid Azərbaycan edən Müzəffər Ali Baş Komandana və onun Rəşadətli Azərbaycan Ordusuna, İgid Azərbaycan Əsgərinə milyon kərə eşq olsun!

Qələbələr, Zəfərlər bizimdir və bizim olacaq!

# Jurnalistlərə imtiyazların verilməsi onlara nə dərəcədə təsir edəcək?

“Ümumilikdə ”Media haqqında” qanunda medianın inkişaf tendensiyalarını şərtləndirən eyni zamanda jurnalistlərin yaradıcılığının və peşəkarlığının artırılması, onların sosial rifahının yaxşılaşdırılmasına dövlətin dəstəyini şərtləndirən bir sıra maddələr nəzərdə tutulub”. Bu fikirləri SİA-ya açıqlamasında ”Bakı Xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev bildirib.

Baş redaktor qeyd edib ki, zaman-zaman ”Media haqqında” qanunun müddəaları həyata keçirildikdə jurnalistlər və redaksiyalar bunu praktikada görəcəklər: ”Jurnalistlərin ipoteka kreditlərinə əlçatan olması yeni qanunun ən mühüm vəziyyətlərindən biridir. Maddələrin hər birini hazırda saymaq imkanımız yoxdur. Lakin mən birini deyə bilərəm ki, 5 ildən yuxarı təcrübəsi olan jurnalistlər ipotekalı mənzil almaq hüququna malik olacaq. Gənc ailə olan jurnalistlər ipoteka kreditləri ilə yanaşı həm də sosial ipoteka kreditlərindən bəhrələnə biləcəklər. Nəzərə almaq lazımdır ki, dövlət jurnalistlərə müəyyən şərtlər daxilində pulsuz mənzillər verir, eyni zamanda paralel olaraq gənc ailə olan jurnalistlərə və müəyyən qədər təcrübəsi olan peşəkarlara çox aşağı ipoteka faizi ilə mənzil sahibi olmaq imkanına şərait yaradır. Əlbətdə bu jurnalistlər üçün olduqca əhəmiyyətli perspektiv açır.



İpoteka kreditlərinin hesabına bir çox jurnalist mənzil problemini aradan qaldıra biləcək. Media və jurnalist reyestrinə daxil olmaq, yeni jurnalist vəsiqəsinə sahib olmaq və s. bütün bunlar jurnalistin bir peşəkar kimi fəaliyyət göstərməsinə yardımçı olur. ”Media haqqında” qanunda jurnalistlərin bundan sonra sahib ola biləcəkləri imtiyazların hamısı bütün şəkildə göstərilməsə də, müəyyən maddələr bu qanuna istinad edərək yeni-yeni imtiyazların jurnalistlərə aid edilməsinə imkan verəcək”.

***Banuçiçək Hüseynli***

# 27 Sentyabr - Zəfər yolunun başlanğıcı!



27 Sentyabr- Ürək döyüntüləri, həyəcan, sevinc, qürur, fərəh, eyni zamanda müqəddəs təlaşdan doğmuş kədər. Bu həmin gün idi ki, xalq təxminən otuz il bu günün həsrəti ilə yaşadı. Böyük bir ordu bu gün üçün təlimlər keçdi. Sanki hər şey bu gün üçün hesablanmışdı. Həmin gün yer də, göy də, təbiət də bizim - haqqın tərəfində idi. Haqqımızın bərpa olunmasının ilk müjdələri gəlirdi. Havadan Vətən qoxusu hiss olunurdu. Bir hərbçinin dediyi kimi: "Nə döyüşməli havadır?!"27 Sentyabr -iki il bundan öncə Ermənistan ölkəmizə qarşı hərbi təxribat törədərək bizim döyüş mövqelərimizi, yaşayış məntəqələrimizi atəşə tutmağa başlamışdı. Namərdcəsinə planlanmış bu həmlə nəticəsində xeyli sayda hərbçimizlə yanaşı mülki insanlarımız həyatını itirdi. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin əmri ilə ordumuz bu qanlı təxribata cavab olaraq əks-hücum əməliyyatına keçmişdi.



44 gün davam edən və tarixə "İkinci Qarabağ savaşı" kimə düşən bu şanlı müharibə bizim tam qələbəmizlə başa çatdı. Bu müddətdə biz BMT-nin məşhur qətnamələrini öz gücümüzlə icra etdik. Ədaləti, beynəlxalq hüququ bərpa etdik. Bir gözümüz gülüb, bir gözümüz ağlasa da milli ləyaqətimizi özümüzə qaytardıq. İllərdir həsrətində olduğumuz Vətən torpaqlarına şanlı ordumuzun ayağı dəydi, səmalarında üç boyalı bayrağımız dalğalandı. Qulağımız televiziya xəbərlərində, gözümüz cənab prezidentin rəsmi sosial şəbəkə profillərində idi.27 Sentyabr - Azərbaycan Respublikasının Prezidenri İlham Əliyevin 2 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq təsis edilən bu gün ölkəmizdə Anım Günü kimi qeyd edilir. Biz bu şanlı tarixlə fəxr edirik, çünki bizlər artıq qalib xalqın vətəndaşlarıyıq. Düşmənlərin bir neçə ilə işğal etdiyi əraziləri 44 günə dişi ilə, dırnağı ilə azad edən oğulların sayəsində biz bu gün dünyaya Şuşa vaxtı ilə baxırıq. Al-əlvan Vətən bağının içində bu gün xarı bülbülü də görürük. Düşmən bilirdi ki, bu torpaqlar onların deyil və onu da bilirdilər ki, evin sahibi gec-tez evinə qayıdacaq. Əks halda uçurub-dağıtmaq əvəzinə qurub yaradardılar. İllərlə müdafiə sədləri tikməzdilər. Bilməli idilər ki, mifləşdirdikləri, əfsanə kimi təqdim etdikləri o keçilməz istehkamları Azərbaycan ordusu cəmi bir neçə saata darmadağın edəcək. Çünki cənab prezident demişkən: "Bizi heç kim dayandıra bilməzdi. Bu gün bütün beynəlxalq aləm bizim qələbəmizlə razılaşır. Bu gün bölgədə, o cümlədən Azərbaycan-Ermənistan münasibətlərində gündəliyi formalaşdıran tərəf Azərbaycandır".Şəhidlərimizin xatirəsi hər il 27 Sentyabr saat 12:00-da ölkə üzrə bir dəqiqəlik sükutla yad ediləcək. Bundan sonra bu torpaqlarda təxribat törətmək istəyən düşmən bilsin ki, bu sükut fırtınadan öncəki səssizlik də ola bilər. Bilsinlər ki, "müharibənin və qələbənin rəmzi olan dəmir yumruq yerindədir. Bunu heç kim unutmasın!"

***Elvin Əlizadə***
***YAP Sumqayıt şəhər təşkilatının məsləhətçisi***



SİYASİ RAKURS+ÖZƏL

# Paşinyanın BMT sərsəmləmələri: günah bizdən getdi!

**Ermənistan ona verilmiş bu imkanlardan istifadə etməlidir, əks halda onlar məsuliyyəti öz boyunlarında daşımalı olacaqlar**



Ermənistanın baş naziri Nikol Paşinyanın son bəyanatı bir daha göstərir ki, erməni baş naziri açıq-aşkar üzərinə düşən öhdəlikləri nəinki yerinə yetirmək fikrində deyil, habelə onun Azərbaycanın ərazilərinə qarşı iddiaları qalmaqda davam edir. Belə ki, onun Azərbaycanın ərazi bütövlüyünü yalnız Azərbaycanın Ermənistanın 29800 km² (?!) ərazisini tanıyacağı halda qəbul edəcəyini sərsəmləyən Paşinyan bu dəfə də söz oyunu oynamaqda davam edib. Halbuki, Ermənistanın ərazisinin iddia edilən ölçülərə söykənməsinə dair heç bir fakt, dəlil və sübut da yoxdur!

### Həyasızlığın son həddi - Nikol Paşinyan BMT-nin Baş assambleyasının tribunasından dünyaya açıq-aşkar yalan sırıyır, Azərbaycandan əlavə 57 km² (!) torpaq qoparmağa cəhd göstərir

Məsələ həm də ondadır ki, Ermənistanın ərazisi hətta SSRİ dövründə də bu qədər olmayıb. Görünür, erməni baş naziri bu dəfə də torpağımızdan qoparmaq qərarına gəlib. Ermənistan 15 sovet respublikasının daxilində olarkən və hətta bolşeviklər bu respublikaya torpaq hədiyyələri verərkən belə, onun ərazisi 29743 km²-i əhatə edirdi. Məhz bu kontekstdən yanaşarkən görünən budur ki, İrəvan bir tərəfdən guya Azərbaycanın onun "ərazisinin" 40 km²-ni "işğal edib", digər tərəfdən isə Nikol Paşinyan BMT-nin Baş assambleyasının tribunasından dünyaya açıq-aşkar yalan sırıyır, Azərbaycandan əlavə 57 km² (!) torpaq qoparmağa cəhd göstərir. Yəni həyasızlığın son hədlərindən biri də məhz budur!

Beləliklə, Ermənistanın uzun illər boyu davranışlarını nəzərə alsaq Paşinyanın "Biz Azərbaycanın ərazi bütövlüyünü tanıyırıq" ifadəsi heç bir səmimiyyəti əks etdirmir - İrəvan faktiki olaraq ərazilərimizə gözünü tikməyə davam edir. O cümlədən, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü "tanıdığını" bəyan edərkən haçalı fikirlər səsləndirməməli, həmçinin, hazırda Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdikləri ərazilərdəki anklavları (həmçinin, Qazax rayonunun 7 kəndi və Naxçıvan MR-nın Kərki kəndi) da önə sürməlidir!

### Paşinyanın ağzından əzəli ərazilərimizin Azərbaycana aid olduğunu eşitməzsək, onda Azərbaycan da əsla "İrəvan Ermənistanın paytaxtıdır" ifadəsini heç vaxt işlətməyəcək

Beləliklə, biz erməni baş nazirinin ağzından əzəli ərazilərimizin Azərbaycana aid olduğunu eşitməzsək, onda Azərbaycan da əsla "İrəvan Ermənistanın paytaxtıdır" ifadəsini heç vaxt işlətməyəcək. Necə deyərlər, sual nə cürdürsə, cavabı da elədir!

Yaxud, əgər erməni tərəfi yenidən özünün feyk tarixini zorla dünya ictimaiyyətinə sırımağa davam etmək üçün cəhdlər göstərəcəksə, onda Prezident İlham Əliyevin İrəvanın, bütövlükdə isə Qərbi Azərbaycanın əzəli, tarixi Azərbaycan torpağı olduğu barədə bəyanatının əməli şəkilə keçməsinin şahidinə çevriləcək. Ona görə də, qondarma tarixi önə sürüb dünya ictimaiyyətinin başını sözün əsl mənasında xarab etməkdənsə, mövcud dünya düzəninin tələblərinə, reallıqlarına uymaq daha yaxşı olardı.

Hələ ki, qonşusunun ərazilərini işğal altında saxlayan məhz Ermənistandır. Bu ölkənin silahlı qüvvələri hətta nə qədər inkar etsələr belə Qarabağda dislokasiya olunmaqdadırlar. Üstəlik, bununla bağlı Azərbaycanın müvafiq dövlət orqanlarında tonlarla danılmaz faktlar, dəlillər, sübutlar mövcuddur. Əlavə olaraq isə Ermənistan bizim anklavlarımızı da işğal altında saxlayır. Belə olan halda BMT-nin Baş assambleyasının tribunasından həyasızcasına delimitasiya edilməmiş torpaqlarla bağlı Azərbaycanın Ermənistanın ərazilərini "işğal etməsi" iddiasını necə irəli sürmək olar?

### Rəsmi Bakı dəfələrlə bəyan edib ki, Qarabağın statusu artıq müəyyən edilib - bu status Azərbaycanın iqtisadi rayonudur və nöqtə!

Daha dəqiq deyək: ərazi bütövlüyünü tanımaq ya birmənalı və şərtsiz olur, ya da ümumiyyətlə, olmur. Yəni "tanıyarıq amma..." məsələsi olmamalıdır, ya hə, ya da yox! Rəsmi Bakı dəfələrlə bəyan edib ki, Qarabağın statusu artıq müəyyən edilib - bu status Azərbaycanın iqtisadi rayonudur və nöqtə! Həmçinin, bu ərazilərin əhalisinin də statusları bəllidir - onlar etnik və dini fərq qoyulmadan Azərbaycanın vətəndaşlarıdırlar. Gəlin qısa ekskurs edək. Ölkəmizdə dağ yəhudiləri, molokanlar, udinlər, ruslar və s. millətlər, xalqlar kifayət qədər komfort, rahat, təhlükəsiz həyat sürürlər. Onlar Azərbaycan Respublikasının Təhsil nazirliyinin təyin etdiyi proqram üzrə təhsil alır, dini xüsusiyyətlərinə aid olan məbədlərdə ibadət edir, Azərbaycan Silahlı Qüvvələrinin sıralarında hərbi xidmət keçir, çoxsaylı iş yerlərində çalışır, qazanır, vergi ödəyir, toylar keçirib övlad həyata gətirirlər, parlamentə seçilirlər, hətta idman komandalarında yığmalarda yer dünya arenasında bayrağımızı yüksəklərə qaldırırlar. Və bu hüquqlar heç də ABŞ-da, Rusiyada, Fransada və s. ölkələrdə yaşayan ermənilərin hüquqlarından əksik deyil, hətta artıqdır! Əgər ermənilər üçün belə hüquqlar qanedicidirsə, bu zaman onlar Azərbaycan dövlətinin müdafiəsi altında yaşaya bilərlər. Yox, bunu istəmirlərsə, əlbəttə ki, kimsə onları zorən tutub-saxlamır. Yaxud, "tarixi torpaqlar" iddialarını yuxarıda göstərilən ölkələrdə qaldırsınlar, Azərbaycanda deyil. Başqa status ümumiyyətlə olmayacaq özü də HEÇ VAXT!

### Prezident İlham Əliyevin də vurğuladığı kimi: "Biz hazırda gələcəkdə irəli sürə bilməyəcəyimiz təkliflərimizi irəli sürürük"

Beləliklə, Nikol Paşinyan bütün bunları qavramalı, qanmalı, dərk etməlidir. Həm də bilməlidir ki, onun ölkəsindən qovulmuş 100 min azərbaycanlılar üçün belə şərait heç vaxt mövcud olmayıb və bu gün də həmin şərait yaradılmır.

Nəticədə, əgər Ermənistan mövcud siyasətini davam etdirməkdə israr göstərəcəksə, onda Azərbaycanın sərt və qətiyyətli, qarşılıqlı cavabı alacaq. Ermənistan onsuz da perspektivsiz vəziyyətini daha da çətinləşdirəcək. Azərbaycan daha əvvəl olduğu kimi öz qüdrətli ordusu ilə sözünü deyəcək, Ermənistan isə olan-qalan şəraitindən də məhrum olacaq. Yəni fakt budur ki, İrəvan sadəcə vaxtını hədər yerə fövtə verməkdədir. Prezident İlham Əliyevin də vurğuladığı kimi: "Biz hazırda gələcəkdə irəli sürə bilməyəcəyimiz təkliflərimizi irəli sürürük". Yəni Ermənistan ona verilmiş bu imkanlardan istifadə etməlidir, əks halda onlar məsuliyyəti öz boyunlarında daşımalı olacaqlar.

*Rövşən RƏSULOV*



Vəli Vəliyev

# Dağıdılan tifaq

Dünyada nə baş verir? Qazanda qaynayan dünyanı qarışdıran çömçə kimin əlindədir, bizim sakitliyimizi əlimizdən alan kimdir, insanlardan istəyi nədir? Suallar çoxdur, cavab isə yox. Heç bunu gözləmirik də, onsuz da kimsə qabağa durub, "bəşəriyyətdən alacağımız, verəcəyimiz budur" deyən də tapılmayacaq. Bəzən, hətta elmi nöqteyi-nəzərdən də dünyanın neçə dəfə dağıldığını, neçə dəfə yenidən formalaşdığını söyləyən alimlərə də razt gəlirik. Arxeoloji qazıntılarda hələlik bir, ya iki dinozavr skeletini tapıb, yaxud mamonta (tüklü fil) aid olduğu deyilən sümükləri göstərib bizdən əvvəl svilizasiyanın olduğunu sübut etməyə, hətta onların nədən və niyə öldüyünü də izah etməyə çalışırıq. Bizdən əvvəlki insan izinə isə hələlik rast gəlmirik. Bəlkə o dövrdə heç insan yaşamayıb, bəlkə planetimizdə yalnız bizim dünyamıza tanış olmayan heyvanların aləmi olub?

Yox, özünüzü çox yormayın, elə o dövrdə də planetimizə azdırılmış "homosapiens"lər Yer kürəsində ağalıq ediblər. İndiki kimi, o qədər təkəbbürlü, özündənrazı, eqoist, hakimiyyətə, hegemonluğa, liderliyə, dünya ağalığına həris olublar ki, nəticədə bir-biri ilə ölüm-dirim savaşına çıxıblar. O qədər silah-sursat, ölüm maşını icad ediblər ki, sonda həmin silahlar özlərinə qarşı çevrilib. Nəticədə bəşəriyyət məhv olub və yenidən haradansa tövbəli və ağıllı insan sürüsü yenidən planetimizə azdırılıblar ki, bəlkə bu dəfə

Bu gün silah alveri dünyada ən gəlirli sahədir. Qəribədir, o silahlar ki, bəşəriyyətə qarşıdır, bütün canlıları yer üzündən silməyə qadirdir insanlar onları eldə etməyə can atır. Niyə? Bəlkə insanlar elə belə də proqramlaşdırılıb ki, sonda özünü məhv etsin. Proqramlaşdırılmış bəzi qurğularda olduğu kimi, yəni istismar müddəti başa çatanda, ya da təmiri mümkün olmayanda sistem özünüməhvetmə mərhələsinə keçir. İnsan da belə bir mexanizmin prototipi ola bilər. Əks təqdirdə, bütün dünyanın ağıllıları, hətta ağlı özünü idarə edə bilməyənlər də bu gedişlə dünyanın məhv olacağını bildikləri halda niyə geridönüm etməsinlər, iddialarından, tamahlarından çəkinməsinlər?

Əvvəllər dünyada iki qütb var idi, kapitalizm və sosializm. Bu fərqli ideologiyalı qütblər 70 il bir-biri ilə didişdilər, bütün var-dövlətlərini silahlanmaya, nüvə silahı əldə etməyə, özlərinə tərəfdar toplamağa sərf etdilər ki, son savaş üçün lazım olar. Amma "soyuq müharibə" adlanan hazırlıq prosesinin aktiv fazaya keçməsi üçün çox gözləməli olduq. Bu gün dünyanın hər tərəfindən qan iyi gəlir. Dünyanın iki nəhəngi Çin və ABŞ Tayvan savaşına çıxıblar və hər ikisində də nüvə silahı var.

İkinci bir savaş NATO-KTMT arasındadır. Sadəcə, bu qarşıdurmada meydan olaraq Ukrayna kimi geniş ərazi və döyüşkən xalqın yaşadığı ərazi seçilib. Əvvəlcə Rusiya bu ölkənin tən yarısını işğal etdi, amma Qərbin göndərdiyi silahlar ukraynalıların işinə yaradı. İndi Rusiya ordusu Xerson, Zaporojye, Donetsk və Luqansk vilayətlərində müdafiə olunan tərəfdir. Rusiyanın adıçəkilən vilayətlərdə keçirdiyi referendumun nəticələri Kremlin həlledici mərhələni işə salması üçün bir vasitə, bir sənəd olacağı göz qabağındadır. Rusiyanın hərbi doktrinasına görə, ölkənin ərazi bütövlüyünə təhdid olacağı halda nüvə silahından istifadə mümkündür. Bu barədə Rusiyanın rəhbər şəxslərinin dilindən çox ultimatumlar eşitmişik. Kimsə Rusiyanın nüvə silahından istifadə etməyəcəyini qəti olaraq deyə bilməz. Rusiya məğlub olmaq istəmir, əks təqdirdə bu, Putin hakimiyyətinin sonu olar. Ukrayna da məğlub olacağını düşünmür, çünki, Rusiya həm də Qərbin üzərində qələbəsini bayram edə bilər ki, bu da Qərbə sərf etmir. Qərb həm də Ukraynanın qələbəsini istəmir, yalnız o halda istəyər ki, qələbənin Qərbin hesabına qazanıldığını hər kəs etiraf etsin. Əks təqdirdə Ukraynanın qələbəsi Qərbə baha başa gələr. ABŞ-ın dövlət katibi Blinken də maraqlı fikir səsləndirib, Rusiya dayansa müharibə bitər, Ukrayna dayansa Ukrayna bitər.

Qoca Avropa da müharibə vəziyyətindədir. ABŞ-ın Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar səbəbindən avropalıları qışda donmaqdan qoruyan qaz demək olar ki, kəsilib. Rusiya Avropanı qaz imtahanına çəkib. Əslində, Avropa ölkələrinə qalsa Rusiyadan qaz idxalını davam etdirə bilərlər, amma ABŞ buna imkan vermir. Avropa həm rus qazının, həm də ABŞ-ın təhdidindən əziyyət çəkir. ABŞ NATO üzərindən Avropanı daim təzyiq altında saxlayır, Vaşinqtonun dediklərinə əməl etməyən ölkələr Rusiya ilə təhdid edilir. Skandinaviya ölkələri kimi. Finlandiya və İsveç NATO-dan, daha doğrusu ABŞ-dan neçə müddət idi ki, uzaq durmağa çalışırdılar. Ukraynada vəziyyət gərginləşəndə Vaşinqtonun əlinə fürsət düşdü, Rusiyanın bu ölkələrə də hücum edəcəyi haqda "kəşfiyyat məlumatları" aldıqlarını Mərkəzi Kəşfiyyat İdarəsi də "təsdiqlədi". Bundan sonra Helsinki və Stokholm tələsik dəstək axtarmağa başladılar və nəticə hər kəsə bəllidir. Bəzən düşünmək olar ki, Vaşinqtonla Moskva burada sinxron hərəkət edirdilər, biri qorxudur, o birisi "himayə" altına alır. Dünya bu dəfə həqiqətən qütbləşir - Şərq və Qərb. Hər ikisi başqa qütbün yaranmaması üçün savaş görüntüsü yaradırlar.

Üçüncü qütb də var, amma savaş vəziyyətində deyil. Türk dünyasının mübarizəsi sivil formadadır. Hələlik dünyanı savaşla, müharibə ilə, nüvə silahı ilə təhdid edən tərəflərin başına ağıl qoymaqla məşğuldur. Görəsən, o ağıl o başda duracaqmı, yoxsa?..

# 27 sentyabr:
# iki il öncə-tarixin bu günü



## UNUDULMAYAN TARİX








Dünyada bir sevgi var: bütün sevgilərin əzəlidir, tamamilə fərqli, azalmayan, səngiməyən, bitməyən, tükənməyəndir. O, milyonlarla azərbaycanlının ürəyində doğulub, o, ürəklərdə Naxçıvan, Qarabağ, Bakı, Gəncə, Xankəndi, Şuşa, Laçın, Füzuli, Goranboy, Tərtər, Xocalı, Ağdərə, Ağdam və digər yurd yerlərimizə, ata-baba ocaqlarımıza sevgimizlə bütövləşib Vətən sevgisini yaradır. Bəli, bu sevginin adı Vətəndir, ona sevdalılar isə bu yurdların yurddaşlarıdır. Bu sevdalılar Vətənin dar gününün sahibi olurlarsa, Vətən onların şad gününə çevrilir. Azərbaycan adlı Vətənin sevdalıları da onun hər qarış torpağı uğrunda canlarından keçməyə hazır olan oğul və qızlarıdır. Onlar üçün Vətən ürək döyüntüsüdür. O, döyünürsə, həyat vardır... İki il öncə 27 sentyabrda döyünən milyonlarla ürək kimi. Vətən üçün döyünüb, Vətən üçün susan minlərlə ürək kimi...

### 30 ilin sevdalıları

Biz Vətənin əbədi sevdalılarıyıq. Vətənimizdən qoparılan yurd yerlərimizin isə 30 illik qara sevdalılarıydıq. Biz Sovet imperiyasının 70 illik əsarətinin zəncirlərindən qoparkən yurd yerlərimiz də köksümüzdən qoparılmışlardıq. Azərbaycana gözdağı olsun deyə, o zamankı dövlət rəhbərlərimizin satqın əlləri ilə ermənilərə hədiyyə olunan cənnətməkan bölgələrimizin həsrətliləriydik. 70 il varı, dövləti talanıb, 1988-1990-cı illərin işğalçılıq siyasətinin qarşısına çıxmağa silahı-sursatı olmayanlar, aciz, çarəsiz sovet əsirləri idik. Hələ 1990-cı ildə 70 illik yuxudan oyanıb, itirdiyimiz illərə heyifsilənənlər idik. Oğulları başqa dövlətin fəhlə batalyonlarında əsgəri xidmət keçən, "böyük vətənimizin" müharibəsində 20 mindən artıq itki verən və qələbəni öz neftimizlə onlara qazandıranlar idik. Buna görəmi torpaqsız erməninin qarşısında torpaq həsrəti çəkəcəkdik? Buna görəmi torpağımızın ətrini çadır şəhərciklərində, sığınacaqlarda, köçkün həyatı yaşadığımız hər yerdə axtarıb, o ətirdən yana burnumuzun ucu göynəyənlərə çevriləcəkdik? Buna görəmi yurd həsrəti ilə qovrulub, ona qovuşmamış digər şəhərlərimizin, kəndlərimizin qəbiristanlıqlarında baş daşlarına çevriləcəkdik?..

### Azərbaycan 30 il öncəki Azərbaycan deyil

Nə gözləyirdi düşmən? Arxasına sığındıqlarının hesabına torpaqlarımızın əbədi sahibi olmağımı? Nə əcəb yaxşı ataların yaxşı oğullarının da olduğunu heç düşünməmişdilər? Yox, çox gözəl düşünmüşdülər. Lakin bu dəfə yenə də həmişəki kimi arxalarındakına arxalandılar. 30 il əvvəl ümummilli liderimizin Naxçıvandan Azərbaycanı idarə etməsinin, müstəqilliyin əldə edilməsindən xeyli sonra məhz onun cəhdi ilə müstəqillik aktının qəbul olunmasını, SSRİ-nin tərkibində qalmaq üçün referendumun Naxçıvanda boykot edilməsini, blokadaya saldıqları Naxçıvanın minlərlə sakininin xilaskarının məhz onun olmasını yoxsa unutmuşdular? Bir-birinin ardınca onlara satılan torpaqların davamına ulu öndər tərəfindən son qoyulmasını necə, xatırlayırdılarmı? Bəs yaxşı ataların yaxşı oğullarının bir gün başlarına od ələməsini necə, düşünmürdülərmi? Prezidentimiz, Ali Baş Komandanımız cənab İlham Əliyevin 1990-cı illərdə yox dərəcəsində olan, ulu öndərimizin təməlini qoyduğu Milli Ordumuzu möhkəmləndirib, gücləndirib, məsələnin dəfələrlə sülh yolu ilə həll edilməsi təklifindən sonra bu ordunu onların fəlakətinə çevirəcəyini necə, düşünmürdülərmi?

## Biz öz torpağımızda döyüşürdük

Azərbaycan xalqı tarixən qonşuları ilə münasibətləri sülh şəraitində, tolerant şəkildə qurub. Kim deyə, kim sübut edə bilər ki, Azərbaycan dövləti nə vaxtsa kiminsə bir qarış torpağına göz dikib, kiminsə hansısa bir sərvətində tamahı olub? Bunu heç kim deyə bilməz. Əzəli torpaqları, zəngin sərvətləri olan bu xalq tarixin bütün dönəmlərində gözütoxluluğun, əsilzadəliyin rəmzi olub. Lakin əzəli torpaqlarının, öz halal haqqının da sahibi olub. Qanındakı çoşqu, igidlik, mərdlik cəsarəti, yenilməzliyi olub. 1990-cı ildə dağıdılan, sərvəti iki qərinəlik dövrdə mənimsənilən, özünü müdafiə etmək üçün heç nəyi olmayan, bu səbəbdən torpaqları əlindən zorla alınan, soyqırımlara məruz qalan bir xalq kökündəki mənəvi dəyərlərinə qayıdacaqdı bir gün. Özünü toplayacaq, itirdiklərini axtaracaqdı. Amma yenə də öz torpaqlarında, yad torpaqlara bir addım da atmadan. İki il öncə tarixin bu günü də Azərbaycanın Milli Ordusu öz torpağımızda, öz ərazimizdə döyüşürdü, itirilmiş torpaqlarını işğaldan azad etmək üçün döyüşürdü. Çünki artıq məqam yetişmişdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Otuz ilə yaxındır ki, bu qətnamələr kağız üzərində qalır. Otuz ilə yaxındır ki, Minsk qrupu çərçivəsində danışıqlar aparılır və bunun sonunda Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıbdır. BMT-dən başqa bütün digər aparıcı beynəlxalq təşkilatlar bizim haqlı mövqeyimizi müdafiə edir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır ki, bu gün Azərbaycan bu təsisata sədrlik edir. Onlar münaqişə ilə bağlı ədalətli qətnamə qəbul etmişlər. İslam Əməkdaşlıq Təşkilatı ədalətli qətnamələr qəbul etmişdir. ATƏT-in qərarları, Avropa Parlamentinin qətnamələri bizim mövqeyimizi dəstəkləyir. Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?!..."

## Gəzməyə qərib ölkə, ölməyə Vətən yaxşı

Xalqımızın özü qədər də dəyərli deyimləri vardır. Onlardan biri: "Gəzməyə qərib ölkə, ölməyə Vətən yaxşı". Həqiqətən də, Vətəni, torpağı olan insan, torpağın şirinliyini, Vətəninin müqəddəsliyini duyan millət söyləyər bu kəlamı. Bizim xalqda belə bir adət var ki, gəncliyində harada yaşasa da, hansı bölgələri, ölkələri gəzsə də, elə ki, ahıl yaşa gəldi, yurdundan bir addım da kənara getməz. Nə üçün? Çünki dünyasını öz yurdunda, öz Vətənində dəyişib, öz torpağına gömülmək üçün. Bu mənada, həyatı boyu başqasının hesabına "torpaq sahibi" olan "qonşumuz" nə qədər yazıqdır. Torpağı olmayan torpaq sevgisinin nə olduğunu necə bilər axı? Əslində, fərqində olsalar, çox böyük bədbəxtlikdir özgə torpaqda dünyaya gətirib, böyütdükləri övladlarını özgə torpaqda da itirmək.

Zəngin tarixə, milli kökə malik qədim bir xalqın övladı olan ölkə rəhbərimizin Azərbaycançılıq məfkurəsindən, dəyərlərindən irəli gələn sözlərinə diqqət edək: "Mən erməni xalqına üz tutub demək istəyirəm ki, onlar öz rəhbərliyinin çirkin əməllərinin girovuna çevrilməsinlər. Bu gün öz hökumətini məsuliyyətə cəlb etsinlər. Öz övladlarını Azərbaycan torpaqlarına göndərməsinlər. Nə işi var erməni əsgərinin Azərbaycan torpağında?



Biz öz torpağımızda vuruşuruq. Bizim əsgər və zabitlərimiz öz torpağında həlak olur, öz torpağında yaralanır və biz öz torpaqlarımızı azad edirik".

## Hər yerdə dalğalanan bayraqlar...

İki il öncə, müharibənin başlandığı gündən etibarən ölkəmizin hər yerində küçələr boyu dalğalanan bayraqlarımızın fonunda gənclərimizin könüllü şəkildə müraciət edərək cəbhəyə getmək istəkləri, onların təntənəli yola salınması, xalqın öz rəhbəri ətrafında sıx birləşməsi, böyük əhval-ruhiyyə, arxa cəbhədə insanların birlik nümayiş etdirməsi, nəticə etibarilə, bu xalqın əzminə, bir də torpaq sevdalısı olduğuna dəlalət edir. Çünki biz öz əzəli torpaqlarımızı işğaldan azad etmək amalındaydıq. Nənələrimizin ağlamaqdan nurunu itirmiş gözlərini qaytarmaq üçün. Babalarımızın o torpaqlarda sancılı qalmış belə, kürəyə yenidən əl atıb torpağın ətrini ciyərlərinə çəkə-çəkə əkib-becərmələri üçün. O torpaqlarda gözünü dünyaya açıb, lakin vaxtilə üzərində ilk qədəmini ata bilməyən, uğrunda döyüşə yollanan igidlərimizin o yurdları qarış-qarış gəzməsi üçün... Bir də həmin torpaqlardan ötrü canını qurban verən, gözü, ruhu qələbəni gözləyən şəhid övladlarımız üçün...

## Biz torpaqlarımıza üçrəngli bayrağımızı sancdıq

2020-ci il, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev: "Artıq dördüncü gün davam edən döyüşlərdə Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək strateji yüksəklikləri işğalçılardan azad edib, bir neçə yaşayış məntəqəsini işğaldan azad edib, uzun fasilədən sonra biz bu torpaqlara qayıtmışıq. Bu torpaqlarda öz bayrağımızı sancmışıq və artıq bu torpaqlardan bizi heç kim çıxara bilməz, biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik. Ona görə erməni xalqı bunu anlamalıdır. Anlamalıdır ki, 30 ilə yaxın başqa dövlətin torpağını zəbt etmək, orada bütün binaları, bütün tarixi abidələri dağıtmaq, 1 milyondan çox insanı öz doğma torpağından didərgin salmaq, Azərbaycan xalqına qarşı soyqırımı törətmək cinayətdir. Biz tarixi ədaləti bərpa edirik, tarixi ədaləti! Qarabağ bizim doğma, əzəli, tarixi torpağımızdır. Qarabağ xanlığının tarixinə baxmaq kifayətdir ki, hər kəs görsün, Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, qurub, yaradıb. Bizim müqəddəs ocağımız Şuşa şəhəri azərbaycanlılar tərəfindən salınıb. Bu gün işğal altında olan torpaqlar bizim tarixi torpaqlarımızdır. Bizim işimiz haqq işidir. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik, buna bizim haqqımız çatır, bunu edirik və edəcəyik".

Bəli, 27 sentyabrdan başlanan 44 günlük İkinci Vətən Müharibəsi zamanı neçə-neçə bayraqlar sancdıq doğma yurd yerlərimizin köksünə. Aldıq onları düşmənin qanlı əllərindən, sildik torpağımızın göz yaşlarını. Şəhid qanı axıtdıq, sağlamlığımızı, qolumuzu, ayağımızı, başımızı qoyduq o torpaqlar yolunda, lakin Zəfər bizim oldu. Çünki Qarabağ bizim idi, bizim də olmalı idi.

## Vətən mənəm... Vətən sənsən...Vətən bizik!

Vətən, torpaq, yurd sahibi olanlar bilirlər ki, bu sevgi tükənməzdir, insan böyüdükcə onunla böyüyür, onunla yaşlaşır, müdrikləşir. Və bir də bu sevgi paylaşdıqca artır, daha da çoxalır. Mən səninlə, sən onunla paylaşdıqca bu sevgi bizim olur, Vətənin hüdudlarından çıxır, dünyanın hər yerində yaşayan soydaşlarımızın Vətən sevgisinə qarışır. O zaman ürəyin əsir Vətən adı gələndə. Ona tuşlanan daş gözlərinə tuşlanır. Ona uzanan əl ömrünə uzanır. Qoy olsun, daş atılsın gözlərimizə, kor qalaq, amma Vətəndə olaq. Qoy uzansın o əllər ömrümüzə, şəhid olaq, amma Vətən torpağında uyuyaq.

İki il öncə də Azərbaycan xalqı Vətən sevgisi ilə qələbə adlı bir yolçuluğa çıxdı. "Yolun açıq, məramın mübarəkdir, Vətənim!", dedik o günlər. "Sənin hər qarış torpağından ötrü can verməK şərəflidir" söylədik. Bu yol çox uzun, maneəli və keşməkeşli idi. Lakin sonunda qələbə adlı bir zirvə və o zirvədə Azərbaycan bayrağı o qədər aydın görünürdü ki... Gördük bayrağımızı o zirvədə. 27 sentyabr 2020-ci ildən başlanan və 44 gün davam edən şərəf, namus, hünər yolu bizi Zəfərə doğru apardı. Hər gün yeni bir qələbə ilə o günə yaxınlaşdıq. 30 ilin dərdsərini çiyinlərimizdən atdıq, məcburi köçkünlərimizin, Birinci Vətən Müharibəsinin minlərlə şəhidinin, yurd həsrətindən dünyasını dəyişənlərin hər birinin qisasını aldıq. Düşmən birliyimizin, həmrəyliyimizin və gücümüzün şahidi oldu. Geri çəkildi və 10 noyabr 2020-ci ildə kapitulyasiya aktına imza atdı. Lakin düşmən düşmənliyində qalır. Bəzən onların yeni təxribatları ilə qarşılaşırıq. Lakin düşmənin unutmayacağı məqamlar var. Prezident İlham Əliyev bir il öncə - İkinci Vətən Müharibəsində əldə olunan Zəfərin birinci ildönümü günü xalqa müraciətində bir daha işğalçı Ermənistana xəbərdarlıq edərək bildirib ki, erməni faşizmi məhv edilib, ancaq onun təzahürləri görünməkdədir: "Bu, çox təhlükəli tendensiyadır, ilk növbədə, Ermənistan dövləti üçün. Mən bunu demişəm, bu gün Anım Günündə şəhidlərimizin əziz xatirəsi önündə bir daha deyirəm, əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!"

***Mətanət Məmmədova***



# Şuşa Su Anbarının divarlarında aşkarlanan yazının Xocalı soyqırımı zamanı itkin düşmüş soydaşımıza aid olduğu ehtimal edilir





**Tələbəlik illərində Natiq Çobanoğlu imzası ilə şeirlər yazan, Xocalı soyqırımı zamanı itkin düşən Quliyev Natiq Vəlyəddin oğlunun Şuşa Su Anbarının divarlarında göy rəngli boya ilə adının yazılması onun sağ olması ehtimalını gündəmə gətirib.**

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupu rəhbərinin müavini Eldar Səmədov sorğumuz əsasında Quliyev Natiq Vəlyəddin oğlunun Xocalı soyqırımı zamanı itkin düşdüyünü təsdiqləyib.

AZƏRTAC-ın Türkiyə bürosu Natiq Quliyevin işğal dövründə Şuşa ətrafında saxlanıldığı barədə məlumatlar əsasında araşdırmasını davam etdirib.

Qeyd edək ki, 2022-ci ilin fevral ayında Ankara şəhərində AZƏRTAC-ın Türkiyə bürosunun rəhbəri, siyasi elmlər üzrə fəlsəfə doktoru Sabir Şahtaxtının "Dinməyən acı: Xocalı " adlı siyasi-tarixi və sənədli kitabı nəşr olunub. Kitabın "Şahidlərin gözündə soyqırımın acıları" bölümündə müəllif itkin düşən tələbə yoldaşı Natiq Quliyev barədə də məlumat verib. Kitab Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Avrasiya Yazarlar Birliyinin (AYB) təşkilatçılığı ilə Türkiyənin "BENGÜ" Yayım Evi tərəfindən nəşr olunub. AYB kitabı ikinci nəşrə hazırlayır.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu tərəfindən Şuşanın fəth olunması bu istiqamətdə araşdırmalar üçün yeni imkan yaradıb. Müəllif növbəti mərhələdə Şuşa Su Anbarının divarında göy rəngli sənaye boyası ilə kiril əlifbasında "Q.Natiq" yazısını (Q.Natiq) tapıb. Bundan sonra AZƏRTAC-ın Qarabağ üzrə müxbiri Tahir Ağaməmmədov Şuşada olub, sözügedən su anbarının divarlarındakı daşlar üzərindəki yazıların həqiqiliyini təsdiqləyən görüntüləri lentə alıb və bu zaman ikinci eyni yazı da aşkarlanıb. Araşdırma nəticəsində müəyyən edilib ki, Şuşa Su Anbarının qapısının çərçivəsi də oxşar boya ilə rənglənib.

Beləliklə, "Q.Natiq" adının onun özü tərəfindən yazılması aşağıdakı mühakimələrlə ehtimal edilir:

- Xocalı soyqırımının törədildiyi vaxt Azərbaycanda hələ kiril əlifbası işlənildiyi üçün Natiq öz adını bu əlifba ilə yazıb;
- anbar qapısının çərçivəsi də oxşar boya ilə rənglənib;
- Şuşa Su Anbarının divarlarında oyma ilə digər yazılara rast gəlinsə də, boya ilə yazılmış yalnız bir ad müşahidə edilib. Yəqin ki, Natiq adını diqqət çəkməmək üçün solğun boya ilə yazıb.

Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə başlanan münaqişə və müharibə nəticəsində 4 mindən çox azərbaycanlı itkin düşüb. Haqqında bəhs etdiyimiz Natiq Quliyev də onlardan biridir. İşğaldan azad edilən ərazilərdə aşkarlanan toplu məzarlıqlardakı cəsədlər Azərbaycanın müvafiq orqanları tərəfindən ekshumasiya olunur. Şuşa Su Anbarının divarlarında Natiq Quliyevə məxsus yazının aşkarlanmasına gəldikdə isə, istənilən halda son sözü fakt deyir.

"Dinməyən acı: Xocalı " kitabının müəllifi 1991-ci ildə Natiqlə birlikdə Şuşada olub. Əslən Xocalıdan olan Natiq Bakıya gəri dönəndən bir müddət sonra doğma şəhərinin müdafiəsi üçün yenidən Xocalıya qayıdıb. Müəllif kitabda Natiq Quliyevə aid olan hissənin sonunda yazır: "...Günlər, həftələr, aylar, illər keçdi. Natiqin anası Səlbi xanımla əlaqə qurduq. Görüşməyə və anamızın səsini eşitməyə cəsarət tapmadım. Oğlu haqqında bir sual göndərdi: Natiq sizdən ayrılanda son sözü nə oldu? Bu sualın cavabını bilirəm. Amma onu deməyə gücüm yoxdur. Bilmirəm söz acizdir, mən acizəm, yoxsa hər ikimiz!".

# "Azərbaycan diplomatik masada da öz qələbəsini reallaşdırıb"



"Azərbaycan 44 günlük Vətən müharibəsində Zəfər çaldıqdan sonra Ermənistan kapitulyasiya aktını imzalayıb və üçtərəfli bəyanatın öhdəliklərini yerinə yetirmək vəzifəsini çox təəssüflər olsun ki, bu günə qədər tam yerinə yetirməyib. Üçtərəfli bəyanatın bəzi müddəaları hələ də tam reallaşmayıb. Həm Soçidə, həm də Brüsseldə keçirilən görüşlər və bu görüşlərdə əldə olunan razılıqlar mütəmadi olaraq Ermənistan tərəfindən törədilmiş təxribatlarla pozulub və sülhə kölgə salınıb". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Naqif Həmzəyev deyib.

Onun sözlərinə görə, erməni havadaları, bəzi beynəlxalq təşkilatlar və dövlətlər Ermənistanın bu təxribatlarına müəyyən dələlət qazandırmağa çalışır: "Göründüyü kimi Azərbaycan diplomatik masada da öz qələbəsini reallaşdırıb. Ötən müddət ərzində Azərbaycan humanist addım ataraq regionda uzun müddətli və davamlı sülh və əmin-amanlığın təmin olunması üçün böyük təşəbbüslər edib. Bu gün Azərbaycan diplomatik həmlələrini həyata keçirir. Xüsusilə erməni lobbisinin dəstəyilə Azərbaycana qarşı reallaşdırılan siyasi təzyiqlərin və diplomatik hücumların qarşısını almaq üçün Xarici İşlər Nazirliyi tərəfindən Prezident İlham Əliyevin müəyyənləşdirdiyi xarici siyasət strategiyası uğurla həyata keçirilməkdədir".

Naqif Həmzəyev bildirib ki, Birləşmiş Millətlər Təşkilatının sonuncu toplantısında xarici işlər naziri Ceyhun Bayramovun iştirak etməsi və bir çox dövlətlərin XİN rəhbərləri ilə görüşü baş tutması burada əsasən Azərbaycanın haqlı zəfəri, zəfərdən sonra Azərbaycanın reallaşdırdığı işlər, Azərbaycanın regionda uzunmüddətli sülh və əmin-amanlığın qorunubsaxlanılması üçün həyata keçirdiyi təşəbbüslər, Ermənistanın mütəmadi olaraq törətdiyi təxribatlar, Ermənistan tərəfindən Azərbaycan ərazilərinin minalanması, bu günə qədər mina xəritələrinin tam olaraq Azərbaycan tərəfinə verilməməsi, son təxribatlar birbaşa olaraq Ermənistanın məsuliyyəti və təxribatları nəticəsində reallaşdırılıb. Bu baxımdan XİN başçıları arasında keçirilən görüşlərdə bu məsələnin diqqətə çatdırılması bütün baş verən təxribatların, sərhəddəki toqquşmaların əsas səbəbkarı Ermənistanın olduğu xüsusilə bildirildi. Göründüyü kimi Azxərbaycan diplomatik sahədə öz fəaliyyətinin davam etdirir. Xarici diplomatik təşkilatlar Ermənistana təzyiqlər göstərməlidir. Düşünürük ki, Ermənistan baş vermiş hadisələrdən düzgün və real nəticələr çıxardacaq".

***Arzu Qurbanlı***



# "Etik davranış qaydalarına əməl etmək mühüm şərtlərdəndir"

""Media Reyestrinin aparılması Qaydaları" haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanını Azərbaycan mediasının saflaşdırılması, sağlamlaşdırılması və peşəkarlaşdırılması yönündə verilmiş çox mühüm bir qərardır. Şəxsən mən Media Reyestrinin yaradılması təşəbbüsünü ilk gündən, yəni, onun "Media haqqında Qanun"un layihəsində nəzərdə tutulduğu gündən dəstəkləmişəm". Bu sözləri SİA-ya açıqlamasında Jurnalistlərin Həmkarlar İttfaqının sədri, media eksperti Müşfiq Ələsgərli deyib.

Onun sözlərinə görə, Media Reyestrinin aparılması qaydalarında nəzərdə tutulan maddələr, əslində peşək KİV və peşəkar jurnalist anlayışı üçün mövcud olan meyarlardırlar: "Reystrin formalaşdırılması, orada nəzərdə tutulan prinsiplərin tətbiq edilməsi ölkədə peşəkar media subyektləri və peşəkar jurnalistlərlə həvəskar xəbər istehsalçısının sərhədlərini müəyyənləşdirəcək. Bu, həm media işçiləri, həm də cəmiyyət üçün çox faydalıdır. Reystrə düşməyin mühüm şərtlərindən biri etik davranış qaydalarına əməl etməkdir. Qaydaların 6.6.11-ci maddəsində bu ifadə çox açıq şəkildə təsvir edilibdir. Etik kodeksə əməl etmək doğru, düzgün, qərəzsiz informasiya istehsal etmək deməkdir ki, bu da cəmiyyətimiz üçün çox faydalıdır".

Müşfiq Ələsgərli sözlərinə belə davam edib: "Bu qaydaların qüvvəyə minməsi ilə həm d, ölkədə ilk dəfə olaraq, sərbəst çalışan jurnalistlərin hüquqları tanınmış olur. Onlar adı reystrdə olan KİV subyektlərinin biri ilə mülki müqavilə bağlamaqla, journalist vəsiqəsi ala və hüquqlarını reallaşdıra biləcəklər.

Reyestrin tətbiq edilməsi həm də ölkədəki peşəkar KİV subyektləri və peşəkar jurnalistlərin kəmiyyətini müəyyənləşdirməyə, statistik məlumat bazası yaratmağa yardım edəcək. Bu statstikanın əldə edilməsi dövlətə də imkan verəcək ki, medianın inkişafı üçün effektiv proqramlar hazırlansın və icra etsin.

Qaydalarda diqqət çəkən daha bir mühüm bənd ora daxil olmağın könüllülük prinsipi əsasında qurulmasıdır. Əgər hansısa KİV subyekti reystrə daxil olmaq istəməsə, öz fəaliyyətlərini köhnə qaydada davam etdirə biləcəklər. Bir sözlə, Qaydalar çox mükəmməl hazırlanıbdır və media ictimaiyyəti üçün yalnız faydalılıq gətirir".

***Ayşən Vəli***

# Nazarbayevin qardaşı oğlu həbs edildi...

Astana məhkəməsi Qazaxıstanın birinci prezidenti Nursultan Nazarbayevin qardaşı oğlu Kayrat Satıbaldıulı 6 il müddətinə azadlıqdan məhrum edib. SİA-nın əldə etdiyi məlumata görə, Satıbaldıulı "Kazaktelekom" SC və "CTS" SC-də iki maddə üzrə xüsusi külli miqdarda mənimsəmə ittihamı irəli sürüb: "Aldatma və ya etibardan sui-istifadə etməklə əmlaka ziyan vurma" və "Tapşırıq və ya mənimsəmə, yəni təqsirli şəxsə həvalə edilmiş başqasının əmlakını oğurlama".



Bundan əlavə, məhkəmənin hökmünə əsasən, Satıbaldıulı 10 il müddətinə dövlət qulluğunda vəzifə tuta bilməz. ..."Tengri news"un məlumatına görə, məhkəmə Qazaxıstan prezidentinə Satıbaldıulın milli təhlükəsizlik orqanlarının general-mayoru rütbəsindən, həmçinin "Kurmet" və "Parasat" ordenlərindən məhrum edilməsi barədə vəsatət təqdim etmək qərarına gəlib.

Qeyd edək ki, Kayrat Satıbaldyulı bu il martın 13-də Qazaxıstanın Korrupsiyaya Qarşı Mübarizə Xidmətinin əməkdaşları tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə və "Kazaktelekom" SC-nin külli miqdarda vəsaitinin mənimsənilməsi faktları üzrə cinayət işinin başlanması ilə bağlı saxlanılıb.

...Korrupsiyaya Qarşı Mübarizə Xidməti ayrıca qeyd edib ki, onlar Satybaldyulinin "dövlətin təhlükəsizliyinə xələl gətirən" digər cinayətlərdə iştirakını da yoxlayırlar.

Xatırladaq ki, "Forbes"in 2018-ci il məlumatına görə, Kairat Satıbaldyulı 163 milyon dollarlıq sərvətə sahib olub və Qazaxıstanın ən zəngin 50 iş adamı sırasına daxil olub.

***Ağasəf Babayev***







ARAŞDIRMA

# İş, yoxsa ev qadınları?

**Bildiyimiz kimi, hər zaman olduğu üzrə evi də, uşağı da, öz işini də idarə edən qadındır. Kişilərin ən çox diqqət etdiyi bir şey var, o da pul qazanmaqdır. Ailə və iş arasında incə tarazlığı tapmaq da qadına bağlıdır.**

Əksər insanlar düşünür ki, uşağı bioloji və psixoloji cəhətdən həqiqətən qoruyan ilk şəxs anadır və uşağın da buna ehtiyacı var. Doğrudur, analıq instinkti kişilərdə olmayan bir şeydir. Amma bir çox kişilər körpələrdən və ev işlərindən qaçmaq üçün bunu bəhanə kimi istifadə edirlər. Kişilər adətən "Mən başa düşmürəm", "Uşağı incidəcəm", "Niyə ağlayır?", "Niyə öskürür?" kimi suallarla vəziyyətdən çıxa bilirlər. Analar uşaqların ehtiyaclarını çox daha həssas motivlərlə və diqqətlə görə bilir. Amma, bu, hər bir ağlı başında olan kişi və ya qadının asanlıqla edə və öyrənə biləcəyi bir şeydir.

Daha sağlam və balanslı bir cəmiyyət üçün kişinin uşaq tərbiyəsində qadın qədər fəal olması lazımdır. Bu ölkədə milyonlarla qadın var ki, onlar savadlıdırlar. Ana olduqdan sonra maliyyə və ya emosional səbəblərə görə karyerasını ikinci plana qoyan qadınlar var. Yaxud uşaq istəyən qadınlar işlərinin təhlükə altında olacağı üçün arzularını illərlə təxirə salırlar.

İlk baxışdan uğurlu, özünə güvənən, ağıllı və gözəl qadınlar kişilərin xoşuna gəlir. Onlar bu tip qadınlara həmin an heyran olurlar. Bir qədər sonra, yeni münasibət qurduqdan sonra problemlər yaranır. Çünki kişi çöldə aslan olan qadının evdə siçan olmasını gözləyir. Gördüyünüz kimi, qadın iş yerində onlarla adamı idarə etsə də, evə gələndə kimliyini qapının ağzına qoymasa, münasibəti getmir.

Əslində, qadınların kişilər qədər güclü olduğu bir mühitdə kişilərin çoxu öz kişiliyini göstərə bilməməkdən qorxur. Onların fikrincə, münasibətdə yalnız bir lider olmalıdır ki, o da kişidir. İdarə olunmaq kişilərin ən böyük qorxusudur.

Güclü qadınların sayı günü-gündən artır. Siyasətdən sənətə, biznesdən elmə qədər qadınlar yüksəlir. Amma gücləndikcə tənqid də edilir. Güclü qadın olmağın nə qədər çətin olduğunu heç kim bilmir. Məsələn, işdə lüzumsuz davranışlara yol verməmək üçün bəzən qadın ciddi və soyuq görünməlidir.

Bəs, iş, yoxsa ev qadınları daha çox yorulur? SİA mövzu ilə bağlı araşdırma aparıb.

Dünyanın ən qədim sivilizasiyalarından biri olan Çində qadınların ayaqlarının gözəl görünə bilməsi üçün kiçik ayaqqabılara soxulur və bu, qadınları rəsmən şikəst edir. Ayaq sümüklərinin quruluşunu tamamilə pozur.

Şəhərləşmə getdikcə qadınların üzərinə düşən yük və simvol daha da böyüyür. Qadınlar kişilərə gözəl görünmək üçün özlərini dəyişməli olurlar. Necə ki, 1970-ci illərdən sonra qadınlar qabırğalarını çıxararaq daha incə görünməyə çalışdılar, ya da diqqəti cəlb etmək üçün dodaq, sinə və bud estetikası dəb halını aldı.

Kənd təsərrüfatına keçiddən sonra ictimai sahədə kişilər hökmranlıq edirdi, hakim təbəqə onlar idi. Çünki təkamülün başlanğıcından qida tapan, sığınacaq quran, fiziki gücü ilə qoruyan insan kişi idi. Qadın ev işlərini çəkib-çevirən sinif idi. Amerikalı yazıçı Darla Şayn "Xoşbəxt ev qadınları" kitabında xoşbəxt evdar qadın olmağın 10 sirrini izah edir:

### Ağlamağı dayandırın!

Ümidsiz ev qadını kimi davranmağı dayandırın. Bu fikri ağlınızdan çıxarın. Yaşadığınız hər gün üçün şükür edin.

### Ev qadını olmaqdan qürur duyun!

Ev qadını olmaq dünyanın ən önəmli işlərindəndir. Unutmayın ki, ailəniz karyeranızdan daha vacibdir.

### Evdar qadına oxşamayın!

Yenidən qadın kimi hiss etmək üçün paltarlarınızla başlayın. Sağlam qidalanın və idman edin. Zəif olmamaq üçün vitaminləri əldən verməyin.

### Evliliyiniz prioritetiniz olsun!

Ərinizlə uşaqlara və ev işlərinə görə uzun müddət bir yerdə olmadınız? Onları bəhanə kimi istifadə etməyin. Həyat yoldaşınıza maraq və qayğı göstərin. Cinsi həyatınızı canlandırın.

### Evinizin qayğısına qalın!

Evinizi yaxşı təmizləyin. Çiçəklər və kiçik bəzək əşyaları ilə bəzəyin. Evinizi daha cəlbedici edin.

### Mətbəxə diqqət ayırın!

Bəzən yemək hazırlamaq çox çətindir. Bəzi qadınlar bunu istəmədən və sırf vəzifə olduğu üçün edirik, amma yox! Hər andan həzz alın. Mətbəxə qayıdın və bacarıqlarınızı nümayiş etdirməyə və əlinizin ləzzətini yenidən kəşf etməyə başlayın. Masada bir ailə olaraq söhbət edin. Mətbəxdən qaçmayın.

Dostlarınızın qayğısına qalın!

Evdar qadın olmaq 7/24 uşaqlara baxmaq, ev işləri görmək, yemək bişirmək demək deyil. Dostlarınızla yenidən əlaqə qurun. Hətta yeni dostlar tapmağa çalışın. Həyat yoldaşınızla birlikdə vaxt keçirə biləcəyiniz evli dostlarınızla şam yeməyi təşkil edin. Divanda tənbəllik etmək əvəzinə, nə vaxt imkanınız varsa, evdən çıxın.

Özünüzə vaxt ayırın!

Xoşbəxt ev xanımı olmağın yolu, işdə olduğu kimi, lazımi motivasiyanı təmin etmək üçün özünüzə vaxt ayırmaqdır. Zövq aldığınız şeyləri etməyə çalışın. Evinizin yaxınlığında, hətta bir saatlıq vaxt keçirə biləcəyiniz bir hobbi kursu tapın.

Bunu ciddi qəbul etməyin!

Özünüzlə barışın və güclü olduğunuzu heç vaxt unutmayın.



Psixologiyanın məşhur adlarından biri olan Maslouya görə insanın əsas ehtiyacları 5 pilləli piramidada sıralanır.

Türkiyədə aparılan araşdırmaya görə, universitet məzunu qadınların 76%-i iş həyatındadır. Onlardan 25% işləmir. Bir tərəfdən uzun iş saatları, digər tərəfdən ev işləri və uşaq baxımı ayrı bir iş olaraq boynuna götürülməyi gözləyir. Bəs, bunlar yalnız qadın işidir?

Araşdırmalar göstərir ki, qadınlar məşğul olmayan vaxtlarında bunları etməyi xoşlayırlar:

- Kitab oxumaq
- Çay içmək
- Televizora baxmaq
- Yatmaq
- Sosial mediada zaman keçirmək
- Onlayn alış-veriş
- Duş vannası qəbul etmək
- Yatan halda televizora baxmaq
- Filmlərə baxmaq
- Şkaf kimi yerlərdə detallı təmizlik və mebel yerlərinin dəyişdirilməsi.

***Ayşən Vəli***

# Ad günü-Anım günü...

## OÇERK





**Bəzən oxşar və eyni rəqəmlər ömürlərə o qədər "bəzək" vurur ki, insan bunun qarşısında heyrətə gəlməyə bilmir. 27 sentyabrda doğulub, 27 sentyabrda ömrünün sonuna doğru yolçuluğa çıxan və elə bu gün 27 yaşını onsuz andığımız şəhid İlkin Muradlının həyatındakı 27-lər kimi...**

Belə oxşar və eyni rəqəmlər dahilərin, böyük şəxsiyyətlərin, bir sözlə, tarixdə izi olanların, heç vaxt hafizələrdən və qəlblərdən silinməyəcək Vətən sevdalılarının ömürlərini "bəzəyir". Bəzəyir ki, onların həyatı daha yaddaqalan, tarixin səhifələrinə dərindən həkk olan həyatlardan olsun. Bəzəyir ki, o oxşar rəqəmlərlə yanıb yaxılasan. Üst-üstə düşən bu rəqəmlərin səndən kimi qopardığının fərqi ilə bir ömür yaşayasan. Bəzəyir ki, İlkin kimi bu gün üç 27-nin əhatəsində şəhidlik zirvəsindən boylanan Vətən fədaisinin hünər, qəhrəmanlıq, mərdlik, qorxmazlıq dolu həyatı qarşısında donub qalasan.

İlkin 1995-ci ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda dünyaya göz açmışdı. Lap yaxından tanıdığım zəhmətkeş bir ailənin övladı idi. Ata-anası əllərinin qabarı ilə böyüdürdü İlkini və ondan kiçik iki qardaşını.

Bu valideynlər üç uşağın qayğıları ilə yanaşı, həm də ev tikirdilər. Yolum o evin qarşısından tez-tez düşdüyü üçün onun kərpic-kərpic qalxdığının da, aylarla elə olduğu kimi qaldığının da şahidi idim. Hələ indinin özündə də o ev tamamilə hazır deyil. Bəlkə də olardı. Lakin İlkinin şəhid olması bu ata-ananın əl-qolunu bağladı. Axı onlar İlkinin toyu üçün bu evin tez hazır olmasına çalışırdılar. Zəhmətlə, alın təri ilə qazandıqları pulu ildə bu evin bir işinə ayırırdılar ki, İlkin həddi-buluğa çatanadək ev də hazır olsun. Özlərinin gəncliyi bu evin yaxınlığındakı köhnə, şəraitsiz daxmada ötsə də, övladlarını bu işıqlı evdə böyütməyə, xeyir işlərini görməyə çalışırdılar. O da ki, illərlə başa gəlmək bilmirdi. Çünki qayğılar çox, qazanc isə az idi...

Bütün bunlar hər dəfə İlkindən söhbət düşəndə kino lenti kimi gözlərim qarşısından ötür. İki zəhmət adamının övladları üçün öz gəncliklərindən keçmələrini, onların yaxşı yaşayışı üçün əllərindən gələni etdiklərini, fədakarlıqlarını yaxşı xatırlayıram.

İlkinin anası ilə bir neçə il bir yerdə də çalışmışıq. Bu övladları üçün canından keçməyə hazır olan ana onların firavanlığı, xoşbəxtliyi üçün nələr etmirdi. Onların ehtiyaclarının ödənməsi üçün öz ehtiyaclarından keçirdi. Onların təhsil alması, geyinib-kecinməsi üçün son qəpiyini xərcləyirdi. Bir ay iş yerinə ayaq döyürdü, lakin ayın sonunda maaş vaxtı bir manatı özü üçün xərcləmirdi. Hamısı onlar üçün-övladları üçün idi.

İlkin Şahbuz şəhərində orta təhsil aldıqdan sonra 2011-ci ildə Naxçıvan şəhərində Heydər Əliyev adına Hərbi Liseydə təhsilini davam etdirirdi. Kaş ki, siz bu valideynlərin qürurunu görə bilərdiniz həmin vaxt. Kaş siz onların ilkləri İlkinin bu uğuruna necə sevindiklərini görərdiniz. Heç bir təhsili olmayan bu iki valideynin yetişdirdikləri övladları ilə necə öyündüklərinin şahidi olardınız. Hələ İlkin 2014-cü ildə hərbi liseyi bitirərək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olanda bu ailənin kaş ki qonağı olardınız. Onların zəhmətkeşlikləri ilə vətənpərvərliklərinin birgə bəhrəsi olan bu uğurun şahidi olardınız. Elə bil dünyanı onlara vermişdilər. Övladları ilə bir o qədər qürur duyurdular.

İlkinin anası Həcər xanım söhbətimiz zamanı həmişə deyirdi ki, uşaqlarım nə qədər əziyyət çəkdiyimi görürlər. Deyirlər ki, ana, qoy böyüyək, səni xanımlar kimi saxlayacağıq. Sən bizim yolumuzda olmazın əziyyətini çəkmisən. Bütün bunları sənə unutduracağıq. İlkin qardaşlarından böyük olduğu üçün ana-atasının çox işlədiklərini, zəhmətə qatlandıqlarını daha yaxşı anlayırdı. Odur ki, məktəbi bitirib işləməyə can atır, valideynlərinə arxa-dayaq olmağa çalışırdı. Yarımçıq evlərinin tamamlanmasına kömək etməyə həvəs göstərirdi.

2017-ci ildə təhsilini başa vuraraq leytenant rütbəsi ilə hərbi xidmətə başlayan İlkin 29 iyun 2020-ci ildə baş leytenant rütbəsi alaraq hərbi xidmətini davam etdirirdi. Bu ailənin qürurunun üzərinə yeni bir qürur gətirmişdi. Onlar elə hey İlkindən danışırdılar. Onun uğurlarından söhbət açırdılar. Bu zəhmət adamlarının hərbçi övlad yetişdirməri onlar üçün o qədər böyük qürur idi ki...

Azərbaycan Ordusunun baş leytenantı olan, zəhmətkeş ailəsinin verdiyi Vətən sevgisi, torpaq sevdası ilə böyüyən İlkin Muradlı 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak edir, Kəlbəcər istiqamətində gedən döyüşlərdə vuruşur. 9 noyabrda, Zəfərimizə cəmi bir gün qalmış, müharibənin bitdiyi saatlarda Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə Şuşa-Kəlbəcər istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı həlak olur.

Zəhməti ana südü, ata nəsihəti ilə canına, ruhuna hopduran, Vətən, torpaq sevgisini də elə ilkin olaraq valideynlərinin zəhməti, qabarlı əlləri üzərində qurulan halallıqdan alan, təhsil aldığı illərdə ölkəmizdə gənclərimizə göstərilən qayğıdan bəhrələnən İlkini yaxınları, dostları və cəbhədə onunla yanaşı döyüşən yoldaşları böyük sayğı ilə xatırlayırlar. Onun mərdliyindən, hünər və cəsarətindən, qorxmazlığından, ölümün gözünə dik baxmasından, "öldü var, döndü yoxdur" prinsipindən, çalışdığı hərbi hissənin adını uca tutmasından, bir də ən əsası, Vətənə hər oğulun borclu olduğunu tez-tez vurğulamasından ağızdolusu danışırlar.

İlkini tanıyanların hər biri ondan böyük sevgi ilə bəhs edir. Onun haqqında danışan hər kəsin səsində bir titrəyiş olduğunu duyursan. Bu, İlkin kimi yoldaşı, dostu, qardaşı itirmək təəssüfüdür. Bu, İlkin kimi oğulu itirmək qəhəridir. Bu qəhər İlkindən söhbət açılanda boğazlarda düyünlənir, göz yaşına çevrilib muncuq-muncuq sellənir.




Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən İlkin Muradlı ölümündən sonra "Vətən uğrunda" medalı, Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman cəsarət və fədakarlıq göstərdiyinə, habelə təşəbbüskar və qətiyyətli addımlar nümayiş etdiyinə görə dövlət başçısının 18 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.

İlkin Muradlı həmçinin Azərbaycanın Şuşa və Kəlbəcər rayonlarının işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29 dekabr 2020-ci il tarixli Sərəncamlarına əsasən "Şuşanın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Daha sonra, Azərbaycan Prezidenti İlham Əliyevin 24 iyun 2021-ci il tarixli Sərəncamına əsasən Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyi üçün "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilmişdir. O, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarının rəhbəri olan, düşmənin canlı qüvvəsinin məhv edilməsində rəşadət göstərən, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 5 noyabr 2021-ci il tarixli Sərəncamına əsasən 3-cü dərəcəli "Rəşadət" ordeni ilə də təltif edilmişdir.

Ali Baş Komandan, dövlətimizin başçısının təltifləri İlkin Muradlının həyat yolu haqqında öz sözünü deyir. Onun Vətənə şərəfli xidmətindən, neçə-neçə rayonlarımızın düşmən tapdağından azad olunmasında göstərdiyi misilsiz xidmətdən söhbət açır. İlkinin igidliyindən, qorxmazlığından, cəsarətindən, eyni zamanda qələbənin qazanılması üçün verdiyi təkliflərdən, əsgərlərimizə rəhbərlik edərək ağıllı planları ilə düşməni məğlub etməsindən və tariximizin səhifələrinə adını qızıl hərflərlə yazmasından danışır.

İlkin... Anasının ilki. İlk beşiyi, ilk laylası. 27 sentyabr sənin doğum günündür. Həm də yoxluğuna başlanan yoldur, ananın dilindəki bayatıdır:

Əzizinəm ilkini,
Sevər ana ilkini,
Sıxar gözün, hey ağlar
Ta olmayan İlkini.

Nə yaxşı ki, doğulmuşdun. Bu dünyaya gəlmişdin. Nə yaxşı ki, 27 sentyabrda başlanan İkinci Vətən Müharibəsində Zəfərin qazanılmasında aparıcı qüvvələrdən biri olmuşdun. Sizlər olmasaydınız, Ali Baş Komandanımızın ətrafında sıx birləşməsəydiniz, "dəmir yumruğ"a qol gücünüzü verməsəydiniz, torpaqlarımızı geri ala bilməzdik. Namusumuzu, şərəfimizi xilas edə bilməzdik.

Bu gün 27 yaşın tamam olur, İlkin. Sən anadan olandan hələ bir neçə il qabaq başlamışdı Qarabağın qara günləri. Düşmən bu yerin sakinlərini silahın burnunda illərlə zülm, zəhmətlə qurub-yaratdıqları evlərindən, ata-baba yurdlarından didərgin salmışdı. Minlərlə qocanı, uşağı, ata-ananı, gənci qətlə yetirmiş, qanlarını içmişdilər. Torpaqlarımızı işğal edib könlümüzə yara vurmuşdular. 30 il idi ki, inləyirdi o torpaqlar. Otuz il idi ki, başına qara şalını salıb sizin yolunuz gözləyirdi. Baharını, yazını, günəşini qovmuşdu Qarabağ. Özünə söz vermişdi ki, siz gedənədək baharı qarşılamaz, günəşə boylanmaz. Odur ki, sizinlə payızı bahar oldu Qarabağın. Ətrinizi duydu, bağrını açdı sizlərə, eləcə də bahara, günəşə...

Siz Qarabağa 30 il gəlməyən baharı gətirdiniz, ondan qışını, payızını alıb ömrünüzə qonaq etdiniz. Sizlər Qarabağa günəş oldunuz, onun qara rəngini anaların yaylığına naxış etdiniz. Sizlər qanınızla 30 il susuzdan çatlayan Qarabağ torpaqlarını suvardınız. Qarabağın rəngini, gülünü-çiçəyini qaytardınız ona.

Nə yaxşı ki, doğulmuşdun, İlkin. Ad gününü hər il Anım günündə anacağıq. Bu, iki tarixi gün, iki böyük hadisədir. 27-nin birində sən dünyaya gəlmisən, birində isə bizi qələbəyə doğru aparmısan. Nə yaxşı ki, doğulmuşdun, əziz balamız. Həmişə qəlbimizdə olan balamız. Qürur, fəxarət yerimiz İlkinimiz. Düşmənə göz dağı İlkinimiz! Səni ananla birlikdə həmişə belə anacağıq:

Aşıq, bil, yağıya kin,
Dönər hər il ağıya kin.
Düşmənə göz dağıdır
Qarabağımda İlkin.

***Mətanət Məmmədova***

# Təcavüzə məruz qalmış toponimlər





Cənubi Qafqazda qədim türklərə məxsus toponimlərin yaranmasından min illərlə zaman keçir. Qədim türklər yaşadıqları ərazinin coğrafi relyefi, tarixi şəxsiyyətlərinin və tayfaların adları ilə adlandırmışlar. Tarixin dönəmlərində silah gücünə boşaldılmış azərbaycanlı yaşayış məntəqələrində Türkiyədən qaçıb gələn erməni qaçqınlarının məskunlaşdırılması ilə yanaşı, həmin yaşayış məntəqələrinin adları da dəyişdirilib. Ermənilərin Azərbaycana qarşı işğalçılıq siyasəti iki əsrlik tarixi dövrü əhatə edir ki, bu zaman məsafəsində təkcə ərazi iddiaları ilə təcavüzkar siyasətlərini davam etdirməyib, eyni zamanda mədəni irsimizə, milli-mənəvi dəyərlərimizə göz dikib, onları özününküləşdirməyə çalışıblar. Mədəni irs nümunələrini erməni mülkiyyəti adı ilə tanıtmağa çalışaraq, əqli mülkiyyətimizin terrorçusuna çevriliblər. Bütün bunlarla yanaşı, neçə əsrlərdir ki, Azərbaycan toponomlərinə qarşı təcavüzkar siyasətlərini reallaşdırıblar. Mənbələrə istinadən deyə bilərik ki, ilk addəyişdirmə 1801-ci ildə baş vermiş, türk mənşəli adlar rus mənşəli toponimlərlə əvəz edilmişdir. Belə ki, ilk dəyişdirilən ad Cəlaloğlu rayonundakı (Stepanovan rayonu) Qaraməhəmməd kəndinin adının dəyişdirilərək Aleksandrovka qoyulması ilə başlayıb.




Qeyd edək ki, Ermənistan ərazidəki türk mənşəli adların dəyişdirilməsi siyasətinə "Türkmənçay" sülh müqaviləsindən sonra, XIX əsrin 30-cu illərindən sistemli və məqsədli şəkildə başlanılmışdır. Tarixin müxtəlif dönəmlərinə nəzər salsaq görərik ki, ermənilərin 1918-20-ci illərdə xalqımızı soyqırıma məruz qoyduqları kimi, qədim tarixi abidələri, binaları yandırır və addəyişməni davam etdirməklə mənəvi soyqırıma məruz qoyurdular. Həmin dövrün materiallarını əks etdirən sənədlərdə qeyd olunur ki, 1918-1920-ci illərdə Qərbi Azərbaycan ərazisində türk mənşəli adlar Yuxarı Ağdam - Qanzakar (İcevan), Tamamlı - Burastan (Artaşat) və s. erməni mənşəli sözlərlə əvəzləndi. 1924-cü ildən aparılan addəyişdirmə prosesi nəticəsində Gümrü Leninakan adlandırıldı. Sonra Böyük Qarakilsə Kirovakan oldu. 1924-1930-cu illər ərzində Ermənistanda türk mənşəli 80 toponim dəyişdirilmişdir. Toponimlərin dəyişdirilməsinə səbəb kimi Ermənistan SSR-nin rəsmi qərarı göstərilirdi. Rəsmi qərarda qeyd olunurdu ki, Ermənistandakı yer adları dini məna daşıdığı, keçmişin feodal ünsürlərini özündə əks etdirdiyinə görə dəyişdirilməlidir. Təbii ki, Ermənistandakı türk toponimlərinin dəyişdirilməsinə əsas səbəb bu adların türk mənşəli olması idi. Toponimlərin dəyişdirilməsi prosesi İkinci Dünya müharibəsindən sonra daha da sürətləndi. 1946-1948-ci illərdə Yaxın Şərqdən, Şərqi Avropa və Amerikadan Ermənistana köçən ermənilərin sayının artması, eləcə də qeyd olunan illərdə təqribən 90 000 erməninin Qərbi Azərbaycana köçürülməsi buna səbəb idi. Tarixçi alimlərin qənaətinə əsasən, toponimlərin dəyişdirilməsinin digər səbəbi Ermənistan ərazisindən azərbaycanlıların kütləvi şəkildə deportasiyası idi. Bu qərara əsasən, 1948-ci ildə 10 000, 1949-cu ildə 40 000, 1950-ci ildə 50 000 azərbaycanlı Ermənistandan köçürüldü. Vurğulayaq ki, Ermənistan SSRİ Ali Soveti Rəyasət Heyətinin ilk fərmanı ilə 29 rayonda 72 türk toponimi dəyişdirilərək mənəvi soyqırım qurbanı olub.

Zaman-zaman türk mənşəli toponimlər təcavüzə məruz qalmışdır. Adı dəyişdirilən rayonlardan biri də Basarkeçər rayonu olub. Basarkeçər rayonu 1930-cu il sentyabrın 9-da yaradılıb. 1969-cu il iyunun 11-nə kimi Basarkeçər, həmin tarixdən sonra isə Vardenis rayonu adlandırılıb. Rayon ərazisində



irili-xırdalı çoxlu dağ zirvələri və Göyçə gölünə tökülən çaylar vardır. Onlardan ən böyüyü Məzrə (dəyişdirilmş adı Masrik) çayıdır. Çaxırlı yaylası da bu rayon ərazisindədir. Tarixi mənbələrdə göstərilir ki, 1948-1951-ci illərdə rayon əhalisinin bir qismi Azərbaycan ərazisinə köçürülmüşdür. Təkcə Zod kəndindən 100 ailə Xanlar (indiki Göygöl rayonu) rayonunda məskunlaşdırılmışdır. Bu vaxt Basarkeçərin 37 kəndində 30-u azərbaycanlı, 5-i erməni, 2-si isə qarışıq kəndlər idi.

Vurğulamaq yerinə düşər ki, 28 noyabr 1988-ci il tarixdə daşnak terror qrupları Basarkeçər rayonunun Çaxırlı, Qanlı, Kərkibaş, Şişqaya, Zod kəndlərinə basqınlar edərək nəqliyyat vasitəsi olmayan imkansız, əliyalın əhalidən 34 nəfəri döyərək işgəncə ilə qətlə yetirmişlər. Qarda-çovğunda borana düşən qaçqınlardan 12 nəfər isə donvurmadan tələf olub.

Basarkeçər rayonunun Daşkənd, Nərimanlı, Ağkilsə, Pəmbək, Qızılvəng, Şişqaya, Zod, Qanlı, Yuxarı Zağalı, Sətənağac, Kəsəmən, Göysu, Dərə, Subatan, Sarıyaqub, Çaxırlı, Zərkənd, Canəhməd, Yarpızlı, Böyük Məzrə, Kiçik Məzrə, Böyük Qaraqoyunlu, Kiçik Qaraqoyunlu, Qoşabulaq, İnəkdağı, Babacan, Kərkibaş, Qayabaşı, Qaraiman, Ağyoxuş, Yuxarı Şorca, Aşağı Şorca, Qırxbulaq, Gödəkbulaq, Tüskülü, Qamışlı, Aşağı Zağalı kimi kəndləri var.

44 günlük Vətən müharibəsi 30 ilə yaxın işğala son qoydu. Bu gün türk mənşəli tarixi adlarımız da özünə qaytarılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olarkən dövlət başçısı bildirib ki, Basarkeçər rayonu Ermənistan ərazisində yaradılıb və orada yaşayanların da mütləq əksəriyyəti azərbaycanlılar olmuşdur. Basarkeçər rayonuna Ermənistanda "Vardenis rayonu" deyilir. "Ancaq bu rayonun, bölgənin əsl adı Basarkeçərdir, Göyçə mahalıdır, qədim Azərbaycan torpağıdır", - deyə Cənab Prezident bildirib: "Yalnız 1969-cu ilin iyun ayında Ermənistan Basarkeçər rayonunu, onun adını dəyişdirərək ona "Vardenis" adı qoymuşdur". Azərbaycan əraziləri işğaldan azad edildikdən sonra 2020-ci ilə qədər Madagiz adlanmış Suqovuşan da öz tarixi adına qovuşdu. Tərtər rayonunun Çaylı kənd inzibati ərazi dairəsində olan Suqovuşan 3 oktyabr 2020-ci il tarixində Qarabağda gedən döyüşlər zamanı Azərbaycan Silahlı Qüvvələri tərəfindən azad edilmişdir. Suqovuşan kəndi 1923-cü ildə təşkil edilmiş Dağlıq Qarabağ Muxtar Vilayətində Ağdərə rayonu inzibati ərazisinə daxil edilib. 1943-cü ildə Suqovuşana şəhər tipli qəsəbə statusu verilmişdi. 1992-ci ildə Ağdərə rayonu ləğv edilərək ərazisi qonşu Ağdam rayonu, Tərtər rayonu və Kəlbəcər rayonu arasında bölüşdürüldü. Suqovuşan kəndi də Tərtər rayonuna birləşdirilən kəndlərdən biri olmuşdur. Onu da vurğulayaq ki, Suqovuşan ilk dəfə 1991-1992-ci illərdə Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib. 1994-cü ilin aprel ayında Manvel Qriqoryanın başçılığı altında Ermənistan ordusunun Eçmiədzin könüllülər dəstəsi yenidən Suqovuşanı işğal edib. 44 günlük Vətən müharibəsində işğaldan azad edilən bu ərazinin tarixi adı Prezident İlham Əliyev tərəfindən bərpa edilərək Suqovuşan adlandırılmışdır.

Tarixçi alimlərin fikirlərinə istinadən deyə bilərik ki, bir çox hallarda yeni ad tapa bilmədiklərindən Azərbaycan toponimləri erməni "dil"inə tərcümə olunmuş, ya da biriki hərf dəyişdirilmişdir. Dəmirçi-Darpnik, Ağqala-Berdkunk, Ayrıvənk-Hayravan, Zod-Sotk, Qızıl Bulaq-Xaçaxbyur, Məzrə-Masrik, Qaraqala-Sevaberd, Göykilsə-Kaputan, Oxçaberd-Voxçaberd, Yengicə-Norabats, Xaçaparaq-Xaçpar, Güllüdüz-Vardahovid, Zeytə-Zedeya, Armutlu-Danzud, Almalı-Xizorud, Nəzrvan-Kazaravan, Ağbulaq-Axpurak, Bəriabad-Barapet, Ağkilsə-Cermakavan, Acıbac-Acabac, Qovşud-Kavçut, Kərd-Kard, Ağudi-Aqitu, Aravus-Aravis, Bayandur-Baqatur, Yeni kənd-Nor-Gyuq, Gabut-Kapuyt, Molla Musa-Musakan, Piraqan-Byurakan, Daşqala-Karaberd, Bəzirxana-Dzithankov, Qızıltamur-Vosgevaz, Melikkənd-Melikgyuğ və s. Sovet Ermənistanı ərazisində olan Azərbaycan mənşəli bütün toponimlərin - çayların, dağların, dərələrin, təpələrin, düzənliklərin adları belə dəyişdirilib erməniləşdirilmişdir. İndi Ermənistan adlanan ərazinin toponimlərinin əksəriyyətini türk mənşəli toponimlər təşkil edirdi.

Yaxın tariximizə nəzər salsaq, görərik ki, 1988-89-cu ilə qədər azərbaycanlılar yaşamış 16 rayonda 90 türk mənşəli toponimlər dəyişdirilərək erməni adı ilə əvəzləndi. Bu rəsmi statistika Ermənistan prezidentinin fərmanı ilə 1991-ci ili əks etdirir. XX əsrin əvvəllərində Qərbi Azərbaycanda 2310 coğrafi addan 2000-ə qədəri türk mənşəlli idi.

Bu gün Azərbaycan öz tarixi torpaqlarına qovuşub. Görülən işlər bir daha təsdiq edir ki, Azərbaycanın tarixi adları yenidən özünə qaytarılır.

***Nəzakət ƏLƏDDİNQIZI***

SİYASİ RAKURS+ÖZƏL

# Separatçılar dinc dayanmırlar!



### Rusiya vətəndaşlığından imtina etmiş erməni milyarderi Ruben Vardanyan isə ”dövlət naziri” olmağa hazırlaşır (?!)

Qarabağın Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri ərazilərdə separatçıların təxribatçı əməlləri davam edir. Belə ki, bu dəfə Rusiya vətəndaşlığından imtina edərək qanunsuz yollarla Xankəndiyə səfər etmiş erməni milyarderi Ruben Vardanyan ardıcıl olaraq separatçılarla görüşlər keçirir, o cümlədən, siyasi maraqlarını təmin etmək üçün ”dövlət naziri” olmağa hazırlaşır. SİA xəbər verir ki, ”Hraparak” qəzetinin yazdığına görə, məhz bu vasitələrlə onun ”dövlət naziri” seçilməsi istiqamətində işlər aparılmaqdadır.

### Separatçıların aşkar həyasızlıqları və təxribatçı əməlləri nəinki dayanmır, əksinə, bu kimi ”təyinolunmalar” reallıqda mövcud vəziyyəti daha da gərginləşdirir

”Mənbələrimizin bildirdiklərinə görə, Vardanyanın ”artsaxın dövlət naziri” seçilməsi çox ehtimal ki, gələn həftə baş tutacaq. Ancaq ilkin ehtimalda onun ”artsax prezidentinin birinci müşaviri” təyin olunması da istisna olunmur. Və yalnız bundan sonra o ”dövlət naziri” olacaq”, deyə erməni nəşri yazır. Nəşr onu da qeyd edir ki, digər ”kadr dəyişiklikləri” də gözlənilir. ”Artıq məlumdur ki, David Babayan ”xarici işlər naziri postunu” tərk edəcək. Onun hazırda ”dövlət naziri vəzifəsini daşıyan” Artak Beqlaryanla əvəz ediləcəyi də istisna edilmir, əlbəttə ki, İrəvan buna mənfi cavab verməzsə”, deyə ”Hraparak” bildirir.

Maraqlıdır ki, bu məsələdə separatçıların aşkar həyasızlıqları və təxribatçı əməlləri nəinki dayanmır, əksinə bu kimi ”təyinolunmalar” reallıqda mövcud vəziyyəti daha da gərginləşdirir. O cümlədən, erməni nəşrinin İrəvanın nəyi isə həll edib-etməyəcəyi ilə də bağlı fikirləri dərc etməsi bütövlükdə regionda normal mühitin yaranmasına çox ciddi əngəllər yaradır. Bu kimi təxribatçı əməllər isə istər-istəməz Azərbaycanın suveren ərazilərində qalmağa davam edən qanunsuz dairələr, eyni zamanda, silahlılar barədə qətiyyətli tədbirlərin görülməsinə kifayət qədər zəminlər və səbəblər yaradır.

### ”Dəmir yumruq” reallığı hazırda da gündəmdədir

Fakt budur ki, nə İrəvan, nə də Qarabağdakı separatçılar dinc dayanmaq fikrində olmadıqlarını açıq-şkar nümayiş etdirirlər. Görünür, amerikalı nənələri Pelosi onların qoltuqlarına çox yekə bir qarpız yerləşdirib...

Yeri gəlmişkən, xatırladaq ki, bundan əvvəl Armenia Today məlumat vermişdi ki, Vardanyan Rusiya vətəndaşlığından imtina edib, Qarabağa köçmək fikrini ortaya qoyub. O, həmçinin ”artsaxın iqtisadi inkişafı ümumerməni fondu” yaratmağa hazırlaşdığını da bəyan etmişdi. Daha əvvəl isə o, ”artsaxın dövlət naziri” olması fikirlərini rədd edirdi, lakin hazırda separatçıların məhz bu kimi növbəti təxribatlara əl atmaları hər şeyin əksini göstərir. Belə olmasa idi o, baş separatçı-quldur Araik Arutyunyanla, qondarma qurumun daha əvvəli ”prezidentləri” Arkadi Qkasyanla, Bakı Saakyanla, yaxud digər terrorçu Vitali Balasanyanla və s. görüşlər keçirməzdi.

Beləliklə, bütün bunlar bir daha sübut edir ki, ”Dəmir yumruq” reallığı hazırda da gündəmdədir və belə davam edərsə, bu yumruq düşmənin başını birdəfəlik əzəcək. Çünki başqa yol da qalmayıb...

**Rövşən RƏSULOV**

Üzeyir Hacıbəyli adına
Bakı Musiqi Akademiyası aşağıdakı kafedralarda vakant yerləri tutmaq üçün müsabiqə elan edir



”İxtisas fortepiano” kafedrası
Professor, elmlər doktoru
Professor
Dosent, fəlsəfə doktoru
Baş müəllim
Müəllim

”Simli alətlər” kafedrası
Professor, sənətşünaslıq namizədi
Baş müəllim
Baş müəllim

”Metodika və xüsusi pedaqoji hazırlıq” kafedrası
Dosent

”Musiqi tarixi” kafedrası
Dosent, fəlsəfə doktoru

Müsabiqə müddəti elan qəzetdə dərc edildikdən sonra bir aydır.
Ərizə və sənədlər müsabiqə haqqında əsasnaməyə uyğun rektorun adına bu ünvana göndərilə bilər.
Bakı şəhəri, Az-1014. Ş.Bədəlbəyli küçəsi 98.

# Hansı xəstələr pensiya ala bilər?



QURUM RƏSMİSİ AÇIQLADI

“Bildiyiniz kimi, Nazirlər Kabinetinin Qərarı ilə təsdiq edilmiş və əlillik sahəsində mütərəqqi dünya təcrübəsinə uyğun fundamental dəyişiklikyi nəzərdə tutan yeni ”Əlilliyin müəyyən olunması meyarları” bu il iyulun 1-dən qüvvəyə minib. Həmin vaxtdan sonra əlillik üçün müraciət edənlərin əlilliyinin qiymətləndirilməsi yeni meyarlar əsasında aparılır”. Bu barədə SİA-nın sorğusuna cavab olaraq Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İctimaiyyətlə Əlaqələr şöbəsinin müdiri Tural Qurbanov deyib.

Onun sözlərinə görə, bununla da əlillik artıq ənənəvi üç dərəcə üzrə deyil, insanın həyat fəaliyyətinin 7 əsas kateqoriya - özünəqulluq, sərbəst hərəkətetmə, istiqamətseçmə, ünsiyyət, davranışına nəzarətetmə, öyrənmə, əmək fəaliyyəti üzrə məhdudlaşma dərəcələri əsasında qiymətləndirilir:

Məhdudlaşma dərəcələri dedikdə:

* özünəqulluq bacarığı (insanın əsas fizioloji tələbatlarını sərbəst keçirməsi, gündəlik ev işləri ilə məşğul olması, şəxsi gigiyena bacarıqları):

* I dərəcə - tələb olunduğundan daha çox vaxtda, dağınıq formada, köməkçi texniki vasitələrdən istifadə etməklə özünəqulluq bacarığı;

* II dərəcə - mütəmadi olaraq kənar şəxslərin qismən köməyi ilə, köməkçi texniki vasitələrdən istifadə etməklə özünəqulluq bacarığı;

* III dərəcə - kənar şəxslərin daimi kömək və qayğısına ehtiyacın olması, onlardan tam asılılıqla əlaqədar özünəqulluq bacarığı;

* sərbəst hərəkətetmə bacarığı (sərbəst hərəkət etmək, hərəkət zamanı, hərəkətsizlik, bədən vəziyyəti dəyişdirilərkən bədənin tarazlığını qorumaq, ictimai nəqliyyatdan istifadə bacarığı):

* I dərəcə - tələb olunduğundan daha artıq vaxt sərf etməklə, dağınıq formada və köməkçi texniki vasitələrdən istifadə etməklə sərbəst hərəkət etmək bacarığı;

* II dərəcə - mütəmadi olaraq kənar şəxslərin qismən köməyi ilə, köməkçi texniki vasitələrdən istifadə etməklə sərbəst hərəkət etmək bacarığı;

* III dərəcə - sərbəst hərəkət etmək bacarığının olmaması, kənar şəxslərin daimi köməyinə ehtiyacın olması;

* istiqamətseçmə bacarığı (ətraf şəraitin adekvat qavranılması, olduğu və ya səmtləndiyi yerin (məkanın) zamana görə müəyyən edilməsi və təhlükəsizliyinin qiymətləndirilməsi bacarığı):

* I dərəcə - yalnız öyrəşdiyi vəziyyətlərdə, yaxud köməkçi texniki vasitələrin köməyi ilə sərbəst istiqamətseçmə bacarığı;

* II dərəcə - mütəmadi olaraq kənar şəxslərin qismən köməyi ilə, köməkçi texniki vasitələrin istifadəsi ilə sərbəst istiqamətseçmə bacarığı;

* III dərəcə - istiqamətseçmə bacarığının olmaması və kənar şəxslərin köməyinə daimi ehtiyacın olması;

* ünsiyyət bacarığı (məlumatın qavranılması, təhlili, yadda saxlanması, istifadəsi, ötürülməsi yolu ilə insanlarla ünsiyyət qurmaq bacarığı):

* I dərəcə - məlumatın qəbulu, ötürülməsi sürətinin azalması və köməkçi texniki vasitələrdən istifadə etməklə ünsiyyət qurmaq bacarığı, eşitmə orqanının hissəvi zədələnməsi zamanı isə qeyri-verbal ünsiyyət metodları və surdotərcümə xidmətindən istifadə edərək ünsiyyət qurmaq bacarığı;



* II dərəcə - mütəmadi olaraq kənar şəxslərin qismən köməyi ilə və köməkçi texniki vasitələrdən istifadə edərək ünsiyyət qurmaq bacarığı;

* III dərəcə - ünsiyyət qurmaq bacarığının olmaması və daim kənar şəxslərin köməyinə ehtiyacın olması;

* davranışına nəzarətetmə bacarığı (özünü dərk etmək, sosial, hüquqi və mənəvi-etik normaları ehtiva edən adekvat davranış bacarığı):

* I dərəcə - davranışına nəzarətetmə bacarığının mütəmadi olaraq məhdudlaşması və (və ya) qismən özünü idarə etmək imkanı ilə həyati vacib funksiyaların yerinə yetirilməsində çətinliyin olması;

* II dərəcə - davranışına nəzarət bacarığının daimi azalması və yalnız kənar şəxslərin mütəmadi köməyi ilə qismən özünüidarəetmə;

* III dərəcə - davranışına nəzarətetmə və özünüidarəetmə bacarığının olmaması, daim kənar şəxslərin köməyinə ehtiyacın olması;

* öyrənmə bacarığı (bilik və bacarıqların qavranılması, təcrübənin artırılması, əldə edilən bilikləri gündəlik həyatda tətbiq etmək bacarığı):

* I dərəcə - psixoloji-tibbi-pedaqoji komissiyanın rəyi əsasında təhsil müəssisələrində və evdə yaradılan xüsusi şəraitdə köməkçi texniki vasitələrin köməyi ilə öyrənmək və təhsil almaq bacarığı;

* II dərəcə - psixoloji-tibbi-pedaqoji komissiyanın rəyi əsasında xüsusi dövlət təhsil standartları və proqramları çərçivəsində təhsil müəssisələrində köməkçi texniki vasitələrin köməyi ilə öyrənmək və təhsil almaq bacarığı;

* III dərəcə - yalnız sadə bacarıq, o cümlədən adi məişətdə sadə hərəkətlər qaydalarını öyrənmək bacarığı, yaxud psixoloji-tibbi-pedaqoji komissiyanın rəyi ilə müəyyən edilmiş ciddi orqanizm funksiyası pozuntuları səbəbilə həmin bacarıqları qavramaq çətinliyinin olması;

* əmək fəaliyyəti bacarığı (işin yerinə yetirilməsinə, keyfiyyətinə, həcminə və məzmununa dair tələblərə uyğun əmək fəaliyyəti bacarığı):

* I dərəcə - iş həcminin, iş yükünün, əməyin gərginliyinin və peşəkarlığın azalması ilə müşayiət olunan əmək fəaliyyəti bacarığı, əsas peşəsi (vəzifəsi, ixtisası) üzrə əmək fəaliyyətini davam etdirə bilməmək, lakin adi iş şəraitində əmək fəaliyyətini həyata keçirmək bacarığı;

* II dərəcə - əlilliyi olan şəxslərə uyğunlaşdırılmış iş yerlərində köməkçi texniki vasitələrdən istifadə edərək əmək fəaliyyətini həyata keçirmək bacarığı;

* III dərəcə - orqanizmin funksiyalarının ciddi pozuntuları səbəbindən sadə əmək fəaliyyətinin qeyri-mümkünlüyü, yaxud kənar şəxslərin əhəmiyyətli köməyi ilə həyata keçirmək bacarığı.

Qeyd olunan bacarıqların III dərəcə məhdudlaşması halı orqanizmin funksiyalarının 81-100 faiz, II dərəcə məhdudlaşması halı 61-80 faiz, I dərəcə məhdudlaşması halı 31-60 faiz pozulması kimi nəzərə alınacaq və bu əsasda da əlillik təyin olunur . Yeni meyarlar əlillik təyinatlarında həssas və obyektiv yanaşmanın, ünvanlılıq və sosial ədalətin təmin edilməsinə, bu sahədə qabaqcıl beynəlxalq standartların tətbiqinə xidmət edir”.

Tural Qurbanov sözlərinə belə davam edib: ”Onu da bildirim ki, son 8 ayda 42 min 511 vətəndaşa əlillik təyinatı aparılıb.Onlardan 13 min 597 ilkin, 28 min 914 təkrar müraciət edən şəxsdir”.

***Ayşən Vəli***

# Çexovun "öldürdüyü" "Qağayı"nı teatrımız yenidən "diriltdi"

**Son dövrlərdə teatra marağın azalması sirr deyil. Etiraf edim ki, mən özüm də son illərdə teatra çox az getmişəm, bunların çoxu dəvətlə olub, az hallarda bilet alıb xoşladığım tamaşaya baxmışam. Bəzən isə tamaşanın çox pis oynandığını görüb tənqidi yazı ilə çıxış etmişəm. Sonuncu belə tənqidi yazım bir neçə il qabaq Gənc Tamaşaçılar Teatrından olmuşdu. Bayram günlərində uşaqlar üçün qoyulan tamaşanı tənqid etmişdim. Lakin sonrakı dövrlərdə bu teatrın daha bir neçə tamaşasına baxmışam və narazı qalmamışam.**





Dünən də elə bu teatrda görkəmli rus yazıçısı, dramaturq Anton Çexovun "Qağayı" əsəri əsasında hazırlanmış eyniadlı tamaşaya baxdıq. Əsəri hələ uşaq vaxtı oxumuşdum və o qədər də xoşuma gəlməmişdi. Çünki əsər o dövr cəmiyyətində müəyyən eybəcərlikləri göstərsə də, lokal motivli idi, yəni elə teatr həyatına həsr olunub. Lakin bəzi personajların dili ilə yüksək materiyadan danışılır. Öz dövrü üçün adi insanlar tərəfindən başa düşülməcəyək tərzdə.

Buna baxmayaraq, bəzən istedadlı rejissor hər hansı bir qəliz əsəri elə mükəmməl səhnələşdirə bilər ki, ən sadə tamaşaçı da hər şeyi dərk edər. Bu əsər indiyədək teatrımızda qoyulmamışdı və təbii ki mən də baxmamışdım. Düşünürdüm ki, cansıxıcı bir tamaşa olacaq. Lakin yanılmışdım...

Teatrın və tamaşanın quruluşçu rejissoru, əməkdar artist Nicat Kazımov Azərbaycan teatr tarixində ilk dəfə müraciət olunan "Qağayı"nın premyerasında teatrın tanınmış aktyorları yanaşı, gənc və istedadlı aktyorlarını da görmək imkanı yaratmışdı.

Bir tənqidçi jurnalist olsam da, yaxşı işləri təbliğ etmək və həqiqi qiymətini vermək lazımdır. Bu tamaşa peşəkarlıqla hazırlanmışdı və mükəmməl oynandı. Əsər özü məna və mahiyyət baxımından o qədər də yüksək səviyyəli olmasa da (şəxsi fikrimdir) rejissor işi, aktyor oyunu yüksək səviyyədə idi. Aktyorlar sözün həqiqi mənasında bu tamaşada ürəklə oynadılar, bütün potensiallarını ortaya qoydular. Və gözəl bir tamaşa alındı.

Qeyd edim ki, bu haqda yazmağı qərara alanda tamaşa haqda məlumat almaq üçün teatrın saytından bu məlumatları götürdüm. Tamaşanın quruluşçu rejissoru əməkdar artist Nicat Kazımov, tərtibatçı rəssamı Telman Şıxıyevdir. Xoreoqrafik həll Nailə Məmmədzadəyə, musiqi tərtibatı Şamxal Novruzluya, fəndlərin quruluşu İsa Əsədova məxsusdur.

Tamaşada əməkdar artistlər Kəmalə Hüseynova, Nicat Kazımov, Rasim Cəfərov, Şövqi Hüseynov, aktyorlar Səbinə Məmmədova, Bəhram Həsənov, Kərəm Hadizadə, Anar Seyfullayev, Sevinc Mehrəliyeva, Anar Səfiyev, Aygün Fətullayeva, Manaf Dadaşov, Nurlan Süleymanlı, Mikayıl Əliyev, Elgün Yəhyayev, Araz Pirimov, Ümman Budaqov, Mətləb Abuşov iştirak edirdilər.

Yalnız səhnə tərtibatı bir az kasad idi. Bütün tamaşa yalnız 1 dekorasiya önündə keçir, olduqca sadə və darıxdırıcı bir səhnə fonudur. Lakin aktyorlar elə oynadılar ki, tamaşaçı bunu hiss etmədi. Tamaşa təkcə səhnədə deyil, həm də zalda oynandı, aktyorlar ara cərgələrdə hərəkət edir və danışırdılar ki, bu da kiçik səhnəni daha böyük miqyasa daşıyırdı. Əlbəttə, bunlar texniki məsələlərdir, lakin tamaşaçıların marağına səbəb oldu.

Aktyorlardan xüsusilə Bəhram Həsənovun, Sevinc Mehraliyevanın, Şövqi Hüseynovun, Səbinə Məmmədovanın oyununu daha çox bəyəndim. Onların performansı daha yüksək görünürdü. Xüsusən, Bəhram Həsənov öz roluna elə girmişdi ki, adama elə gəlirdi ki, elə obraz özüdür canlanıb gəlib səhnəyə. Digərləri də geri qalmırdı. Görünən o idi ki, teatrlarımızda yeni istedadlar yetişir, səhnədə ürəklə oynayan, rolu yaşayan, bütün varlığı ilə obrazı canlandıran gənc aktyorlar, aktrisalar formalaşır.

İndiki elektronika əsrində, texnoteron erada klassik səhnə janrını, teatr mədəniyyətini yaşatmaq üçün hər cür potensialı var. İstedadlar var, dövlətin sayəsində mükəmməl şəraitli teatrlarımız var, biletlər çox ucuzdur, sadəcə cəmiyyət bu imkandan istifadə etməlidir.

Qeyd etməliyəm ki, tamaşaya gəlməzdən əvvəl salonda daha çox orta və yaşlı nəslin nümayəndələrini görəcəyimi düşünürdüm. Nə olsun ki, bu, gənclər teatrıdır. Əvvəla bu əsər sıxıcıdır, klassikdir, ağırdır və düzünü desək, gənclər üçün maraqsızdır. İkincisi, ümumiyyətlə son vaxtlar gənclərin teatra marağı azalıb. Lakin bu tamaşada gənclərin sayı çox idi. Deməli hələ teatrımız yaşayacaq.

Əlbəttə, son vaxtlar teatra maraq azalsa da, klassik teatrsevərlər üçün bu, belə deyil. Lakin onların sayı çox deyil və tamaşalara aldıqları biletlərin pulları ilə teatrları saxlamaq mümkün olmazdı. Azərbaycan teatrlarının yaşamasında dövlətin dəstəyi ən böyük roy oynadı və biz teatrımızı itirmədik. Ağır 90-cı illərdə dövlət büdcəsində pul olmayanda, ağır sosial-iqtisadi böhran yaşananda belə dövlət teatrları atmadı, ləğv etmədi, az maliyyə ilə də olsa qoruyub saxladı. Düzdür, bəzi aktyorlar dözməyib başqa sahələrə, başqa ölkələrə getdilər. Lakin fədakarlar qaldılar, dözdülər və teatrımızı yaşatdılar.

Sovet dövründə teatrların çox böyük nüfuzu var idi, hər hanı bir tamaşağa bilet tapmaq olmurdu, hjamısı anşlaqla keçirdi. Sonra xaos dövrü başladı, siyasi, iqtisadi, sosial, mədəni formasiyaların qəfil və kəskin dəyişdiyi ağır və qaranlıq 90-lar gəldi. O dövrdə təklif olunurdu ki, bazar iqtisadiyyatına keçirik, teatrlar dövlət balansından çıxarılsın, özləri özlərini maliyyələşdirsin. Əgər bu qəbul edilsəydi indi ortalıqda bircə teatr belə qalmazdı. Yaxşı ki buna gedilmədi və demək olar ki bütün teatrlar qorunub saxlanıldı, hətta yeniləri yaradıldı. İndi televiziya internet dövründə terartları yaşatmaq, təbliğ etmək lazımdır.

Sovet dövründə televiziyalar teatr tamaşalarını çəkib efirə verirdilər, teatrlarda tamaşaya qoyulacaq əsərlər haqda məlumat verirdilər, tamaşa haqda təhlili süjetlər çəkirdilər. İnsanlar mədəni istirahət üçün daha çox kinoya, teatra gedərdilər. İndi insanların çoxu bəzən heç aylarla teatr sözü belə eşitmir, heç yadında düşmür, istirahət meyarları belə dəyişib.

Ona görə də, hesab edirəm ki, teatra mediamız dəstək verməlidir, teatrlar təbliğ olunmalıdır, onlarda bütün klassik və yeni tamaşalar səhnəyə qoyulmalıdır. Xüsusən gənclərdə teatra maraq oyadılmalıdır. Gənclər Teatrı gənclərin ideoloji, mənəvi-əxlaqi cəhətdən sağlam fotmalaşdırılması üçün vacib mərkəzlərindən biri rolunu oynamalıdır.

Sonda belə gözəl tamaşaya görə Gənc Tamaşaçılar Teatrının rəhbərliyinə və bütün yaradıcı heyətə minnətdarlığımı çatdırıram. Bu teatrdan heç kimlə şəxsi münasibətim yoxdur, lakin müsbət işləri yazmaq, təbliğ etmək borcumuzdur. Bu teatrdan yeni gözəl tamaşalar gözləyirik.

***Elçin Bayramlı***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb.

## BİLİRSİNİZMİ?

Bu günə qədər bilinən ən ağır böyrək daşının çəkisi 1.36 kq- dır.

***

Dünyanın ən böyük şəkər istehsalçısı Kubadır.

***

Dünyanın ən tez böyüyən bitkisi bambu, bir gündə təxminən 90 sm.

***

Bir insanın üzünü xatırlamaq üçün insan beyninin sağ tərəfi işlədilir.

***

Rusiyanın dörddə biri meşəliklə örtülüdür.

***

Sağ əlini işlədən insanlar sol əlini işlədən insanlara nisbətən 9 il daha çox yaşayır.

# Neymar: “Bu, debütümdən bəri ən yaxşı Braziliya millisidir"




***Braziliya millisinin və PSJ-nin futbolçusu Neymar yığmanın hazırkı tərkibini debütündən sonra ən yaxşı komanda hesab edir. Qol.az xəbər verir ki, bu barədə 30 yaşlı hücumçu özü danışıb. O deyib:***

”Bu, debütümdən bəri ən yaxşı Braziliya komandasıdır. İndi milli daha güclüdür və kompaktdır. Biz qələbələrə daha yaxşı hazırlaşmışıq. Çox güclü hücum xəttimiz var. Komandanın hər bir oyunçusunun öz vəzifəsi var. Bizi isə bir məqsəd birləşdirir və bu, ən mühümüdür. Biz yeni impuls hiss edirik, komanda sanki yenidən doğulur. Bu, əladır! İndi Braziliya millisində həm təcrübə, həm də gənclik var. Biz bir-birimiz üçün səy göstərməyə hazırıq. Biz komanda şəklində oynayırıq və bu, bizə DÇ-2022-də irəliyə getmək şansı verəcək”.

# Dayanacaqlarda ödəmə terminalları niyə yoxdur?

## QURUM RƏSMİSİ AÇIQLADI




“Son günlər dayanacaqlarda ödəmə terminallarının yoxa çıxması halları müşahidə olunur. Belə ki, bır sıra vətəndaşlar bu haldan narazıdır”. Mövzu ilə bağlı SİA-nın sorğusuna ”PashaPay” MMC, Marketinq Kommunikasiyaları meneceri Tural Kərimov münasibət bildirib. Onun sözlərinə görə, ”MilliÖN” terminalları dayanacaqlardan tam şəkildə yığışdırılmayıb, onlar dayanacaqlarda hələ də var: ”Lakin terminallara xəsarət yetirilməsi, vandalizm, texniki nasazlıq və s. səbəblərdən onların bir hissəsi dayanacaqlardan yığışdırılaraq təmirə göndərilib”.

Tural Kərimov sözlərinə belə davam edib: ”MilliÖN” terminalları ölkədə supermarketlər, mağazalar, yeraltı piyada keçidləri və s. yerlərdə qoyulub. 3200-dən çox terminalla vətəndaşlara xidmət göstərilir. Dayanacaqlardan terminallar yığışdırılsa belə, həmin dayanacağın həndəvərində olan nöqtələrdə, yaxınlıqdakı olan ticarət obyektlərində ”MilliÖN” tərəfindən xeyli əlavə terminallar qoyulub ki, onların vasitəsilə rahatlıqla ”Bakıkart” balanslarını artırmaq mümkündür. Hazırda ”Bakıkart” öz rəsmi saytında balansı artırmaq üçün imkanlar təqdim edir”.

***Ayşən Vəli***

# Bir həftədə yol qəzalarında 5 nəfər ölüb...



Həftəsonu Azərbaycanda yol qəzalarında 5 nəfər ölüb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, sentyabrın 24-25-də ölkə ərazisində qeydə alınan 113, əvvəlki dövrlərdən bağlı qalan 14 cinayətin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.

Avtomobil yollarında ölümlə nəticələnən 5 yolnəqliyyat hadisəsi baş verib, nəticədə 5 nəfər ölüb, 1 nəfər isə xəsarət alıb.

# Ailədaxili cinayətlərin qarşısının alınması üçün hansı tədbirlər görülür?




Son zamanlar ailədaxili münaqişələr getdikcə artmaqdadır. Hətta ailədaxili cinayətlərin baş verdiyinin də şahidi oluruq. Bəs, bu cür hallara qarşı Daxili İşlər Nazirliyi tərəfindən hansı tədbirlər görülür? Məsələ ilə bağlı Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev SİA-nın sorğusuna cavab olaraq bildirib ki, ailə-məişət zəminində daxil olan müraciətlərin xarakterikdən asılı olaraq, vəziyyətin obyektiv qiymətləndirilməsində, sorğu və ekspertizaların təyinatında hüquq qaydası əsas götürülür.

Elşad Hacıyev qeyd edib ki, cinayətkarlığın indeksiyasiyasında ailə-məişət məsələləri ilə bağlı xüsusi artım, təhlükəli tendensiya müşahidə edilmir: ”Bu sahədə ictimai münasibətlərin tənzimlənməsində, cinayət, yaxud inzibati hüquqla bağlı aparılan icraat işləri diqqətdə saxlanılır. Daxil olan bütün müraciətlər dərhal yoxlanılmaqla müvafiq tədbirlər görülür”.

”Məişət zorakılığına qarşı mübarizənin effektivliyinin artırılması məqsədilə müvafiq dövlət qurumları ilə qarşılıqlı iş aparılır. Xüsusilə risk qrupuna daxil olan ailələrin - başqa sözlə, qadınların və uşaqların profilaktik uçotu səmərəli nəticə verir. Profilaktik uçotda olan hər hansı ailədə xoşagəlməz vəziyyət müşahidə edilməyib, çünki polis orqanları həmin şəxslərlə bağlı gündəlik işi nəzarətdə saxlayır” - deyə Elşad Hacıyev bildirib.

***Arzu Qurbanlı***

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**